Xalqın qəzeti!

# Xalq qəzeti

№ 009 (30413) 17 yanvar 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Azərbaycanda regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş 4 dövlət proqramı üzrə çoxsaylı layihələrin gerçəkləşdirilməsinə 104 milyard manat vəsait xərclənib. Məhsul buraxılışının həcmi 13,5 dəfə çoxalıb, 1,8 milyondan çox yeni iş yeri və 52 mindən çox müəssisə yaradılıb.**

# Regionların inkişafı və yeniləşməsi Azərbaycanın tarixi uğurudur

## Prezident İlham Əliyevin Lənkəran və Neftçala rayonlarına səfəri

### *“Lenk Fruit” MMC-nin müasir sitrus bağı ilə tanışlıq*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran rayonuna səfər edib.**



Dövlətimizin başçısı “Lenk Fruit” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılan şəraitlə tanış olub.

“Lenk Fruit” MMC-nin direktoru Namiq Cəbiyev Prezident İlham Əliyevə yeni sitrus bağı haqqında məlumat verdi. Bildirildi ki, bağın ümumi ərazisi 150 hektardır. Burada əsasən Türkiyədən gətirilmiş 141 min ədəd sitrus meyvələri, şaftalı və nektarin ağacı əkilib. Ümumi dəyəri 10,7 milyon manat olan layihə üçün Sahibkarlığın İnkişafı Fondu tərəfindən müəssisəyə 1 milyon manat güzəştli kredit və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 148 min manat faizsiz kredit verilib.

Ən müasir aqrotexniki xidmətlərin göstərildiyi bağda damcı üsulu ilə müasir suvarma şəbəkəsindən istifadə edilir. Bundan başqa, sitrus bağında respublikada ilk dəfə olaraq qış aylarında şaxtanın temperaturunu normal dərəcəyə salan, dəyəri 2,2 milyon ABŞ dolları olan 15 ədəd xüsusi avadanlıq quraşdırılıb. Bir avadanlıq 9 hektar ərazini şaxtadan qoruyur. Növbəti illərdə daha 5 ədəd belə avadanlığın quraşdırılması nəzərdə tutulub.

Bildirildi ki, hazırda təsərrüfatda 110 hektar sahədə naringi və limon, 20 hektarda şaftalı, 5 hektar sahədə nektarin və 7 hektarda giləmeyvə bağı salınıb. Sitrus əkin sahələrinin məhsuldarlığı hər hektardan 35-40 ton təşkil edəcək ki, bu da yerli növlərlə müqayisədə 2-3 dəfə çoxdur.

Qeyd olundu ki, 2023–2024-cü təsərrüfat ilində 3 min ton məhsul yığılıb və hazırda yığım davam etdirilir. İstehsal olunan meyvələr ölkə bazarlarında satılmaqla yanaşı, Rusiyaya da ixrac edilir. Gələcəkdə təsərrüfatın daha da genişləndirilməsi, o cümlədən dağətəyi ərazilərdə terras əkin sxemləri ilə sitrus sahələrinin yaradılması üçün hazırlıq işləri aparılır.

Hazırda təsərrüfatda 140 nəfər işlə təmin olunub.

## Çabahar limanı niyə gündəmə gəlib?

**Yanvarın 15-də Ermənistanın iqtisadiyyat naziri Vahan Kerobyan bildirib ki, Ermənistan və Hindistanı birləşdirən İrandan keçən ticarət yolunun 2024-cü ilin may ayına kimi açılması planlaşdırılır. Nazir izah edib ki, bu yaxınlarda hindistanlı həmkarı, həmçinin Çabahar limanının Hindistan hissəsini idarə edən şirkətin rəhbəri ilə görüşüb. Tərəflər may ayına qədər həyata keçirilməli olan fəaliyyət planını müəyyən ediblər.**



Söhbət Hindistandan Ermənistana, daha sonra Gürcüstana, Avropa İttifaqı ölkələrinə və əks istiqamətdə maneəsiz yük daşınmasını təmin etmək üçün İran və Hindistan tərəfləri ilə əməkdaşlıqdan gedir. İrəvanda ümid edirlər ki, bu yolun işə düşməsi ticarət dövriyyəsini və yükdaşımaları kəskin şəkildə artıracaq. Bəs Çabahar limanının işə düşməsi regionda geoiqtisadi atmosferə necə təsir göstərəcək? Ümumiyyətlə, bu limanın son dayanacağı olan “Köhnə dünya”da layihəyə münasibət sabit qalacaqmı?

*(ardı 4-cü səhifədə)*



## Fransa erməniləri yasa batıblar

**Fransa hökumətindəki ilk müsəlman qadın, 2007–2009-cu illərdə ədliyyə naziri vəzifəsində çalışmış Raşida Datinin yanvarın 11-də ölkənin mədəniyyət naziri təyin edilməsi dünya ermənilərinin hiddətinə səbəb olub. Ölkənin “Le Figaro” qəzetinin direktor müavini Jan-Kristof Byusson R.Datinin Fransanın mədəniyyət naziri təyin edilməsini şərh edərkən onun anti-erməni mövqeyini xatırladıb. Deyib ki, Fransa ermənilər bu gün kədər içərisindədirlər.**

*(ardı 4-cü səhifədə)*

## Paytaxtın Baş planı ictimaiyyətə təqdim olunub

**Dünən Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın 2040-cı ilədək inkişafına dair Baş planının ictimaiyyət üçün təqdimatı keçirilib. Mərasimdə bir sıra rəsmi şəxslər, şəhərsalma mütəxəssisləri, memarlar, tanınmış ictimai xadimlər, qeyri-hökumət təşkilatları və media nümayəndələri iştirak ediblər.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Nazirlər Kabinetinin Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri Feyruz Mustafayev çıxış edərək yeni Baş planın mahiyyəti, konsepsiyası və şəhər həyatında ediləcək dəyişikliklər barədə məlumat veriblər. Qeyd olunub ki, Baş plan yaxın illər ərzində Bakı şəhərinin strateji inkişaf istiqamətlərini müəyyən edən əsas ərazi-planlaşdırma sənədi olmaqla paytaxtın mövcud vəziyyəti və ehtiyaclarının təhlili əsasında müasir şəhərsalma yanaşmaları əsasında tərtib edilib.




*(ardı 7-ci səhifədə)*

**Fotoreportaj**

## Yeni yol Gədəbəydə 19 kəndi yüksəlişə qoşur

**Ölkə Prezidentinin Gədəbəy rayonunun Kiçik Qaramurad–Cəfərli–Əyrivəng–Alnabat–Kərimli–İnəkboğan–Göyəmli–Şınıx–Göyəlli–Çobankənd–Şahdağ–Çiçəkli avtomobil yolunun əsaslı təmiri ilə bağlı ötən ilin son ayında imzaladığı sərəncam gədəbəylilərin hədsiz sevincinə və razılığına səbəb olub.**

*(ardı 9-cu səhifədə)*





## HƏMAS – İsrail müharibəsinin sonu görünmür

### *Bu xəmir, deyəsən, çox su aparacaq*

**HƏMAS-la İsrail arasında münaqişə 100 gündən çoxdur ki, davam edir. Bu, Yaxın Şərq regionunda 1967-ci ildə baş verən 6 günlük Ərəb–İsrail müharibəsindən sonra ən kəskin silahlı qarşıdurmadır. Tərəflərin heç biri güzəştə getmək istəmir. Bununla bərabər, hər iki tərəf ağır itkilər verir.**

Təkcə Qəzza zolağında 24 mindən çox fələstinli həlak olub. Onların arasında qadın, uşaq və ahıllar da çoxdur. İsrail hərbçilərinin də itkiləri artır. Müharibənin nə vaxt bitəcəyi isə heç kəsə bəlli deyil.

*(ardı 11-ci səhifədə)*

# Prezident İlham Əliyev Lənkəran regional “ASAN xidmət” mərkəzinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran regional “ASAN xidmət” mərkəzinin açılışını edib.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, Lənkəran regional “ASAN xidmət” mərkəzi rayonun Qurumba kəndində inşa edilib. Mərkəz üçün ayrılmış iki hektar ərazidə üçmərtəbəli inzibati bina, fəvvarə, yerüstü avtomobil dayanacağı, istirahət və uşaq əyləncə meydançası, “ASAN Kafe” yaradılıb.

Dövlətimizin başçısı Lənkəran regional “ASAN xidmət” mərkəzini işə saldı.

Məlumat verildi ki, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında qeydiyyatda olan, ümumilikdə, 500 minə yaxın vətəndaşa xidmət edəcək mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Burada 214 əməkdaş və 40 könüllü çalışacaq.

Mərkəz videomüşahidə kameraları, yanğınsöndürmə, mərkəzləşdirilmiş havalandırma sistemləri, “ASAN ödəniş” terminalları, elektron şikayət, elektron rəy sorğusu və Çağrı mərkəzinə zəng köşkləri və müasir avadanlıqlarla təchiz edilib.

Regionda startapların inkişafını təmin etmək məqsədilə burada “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi də fəaliyyət göstərəcək.

Burada, həmçinin ASAN İnnovativ İnkişaf Mərkəzinin fəaliyyət göstərməsi nəzərdə tutulur. Əsas məqsəd qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət qurumlarında çalışan kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə müsbət töhfələr verməkdir.

Qeyd olundu ki, fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar “ASAN xidmət” mərkəzlərində innovativ həll təmin edilib. Belə ki, mərkəzlərdə olan “ASAN növbə” terminallarına “Seçici statusunu yoxla” adlı funksional bölmə əlavə olunub. Vətəndaşlar şəxsiyyət vəsiqələrini qeyd edilən yerdə oxudaraq adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər. Həmçinin qeydiyyat üzrə seçki dairəsi və məntəqəsi, səs veriləcək seçki məntəqəsinin ünvanı haqqında məlumatları əldə etmək mümkündür. Bu yeni layihə Mərkəzi Seçki Komissiyası və “ASAN xidmət”in birgə layihəsi çərçivəsində reallaşdırılıb. Eyni zamanda, “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “ASAN xidmət” tərəfindən həyata keçiriləcək tədbirlərlə bağlı da konseptual plan hazırlanıb. Plana əsasən, bir sıra forum, müsabiqə, hakaton və festivallar təşkil olunacaq.

Dövlətimizin başçısına Lənkəran “ASAN xidmət” mərkəzində tətbiq olunacaq innovativ yeniliklər – İntellektual məhsul ixracı, Etimad Fondu, Dövlət Xidmətlərinin Akselerasiya Mərkəzi, Universal operator, Süni intellekt əsaslı xidmətlər və smart qolbaq barədə məlumat verildi. İşğaldan azad olunmuş ərazilərdə “ASAN xidmət”lə əlaqədar bildirildi ki, mərkəzlərin qurulması üçün Dövlət Agentliyi tərəfindən 7 rayonda təhlillər aparılıb. Təhlillər nəticəsində proqnozlaşdırılan müraciət sayı və əlverişli coğrafi mövqeyə uyğun olaraq Ağdam, Laçın və Cəbrayıl rayonlarında “ASAN xidmət” mərkəzlərinin qurulmasının məqsədəuyğunluğu müəyyənləşdirilib. Eyni zamanda, hazırda Şuşa şəhərində də “ASAN xidmət”in binasının inşası davam etdirilir.

Qeyd edək ki, hazırda ölkəmizdə 26 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Lənkəran “ASAN xidmət” mərkəzi sayca 27-cidir.



“ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən vətəndaşlara ümumilikdə 400-ə yaxın, “ASAN kommunal” mərkəzlərində isə “Azərişıq” ASC, “Azərsu” ASC və “Azəriqaz” İB tərəfindən 55 xidmət göstərilir.

Bu il yanvarın 8-dək “ASAN xidmət” mərkəzlərinə 8 milyon 890 mindən çox vətəndaş tərəfindən 70 milyona yaxın müraciət daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faiz təşkil edir.

Dövlət Agentliyi “ASAN xidmət” modelinin ixracı ilə bağlı 20-dən çox ölkə və beynəlxalq təşkilatla müqavilə imzalayıb.

# Cənub bölgəsində müasir penitensiar kompleks



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Ədliyyə Nazirliyinin Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılan şəraitlə tanış olub.**

Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına yeni penitensiar müəssisə barədə məlumat verdi.

Bildirildi ki, ümumi saxlama limiti 1300 nəfərlik olan penitensiar kompleks iki zonadan ibarətdir. Burada istintaq təcridxanasında barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin, cəzaçəkmə müəssisəsində isə məhkumların məhkəmə hökmünə əsasən müxtəlif rejimlərdə saxlanılması nəzərdə tutulur. Müəssisədə əsasən cənub zonası və bu bölgəyə yaxın olan ərazilərdə yaşayan şəxslər saxlanılacaq ki, bununla onlar öz ailələri ilə daha asan və rahat görüşə biləcəklər.

Ədliyyə Nazirliyinin innovativ məhsulu olan “ƏN TEZ” Xidməti əmək, maliyyə və digər resurslara qənaət etməklə istənilən yerdə virtual platforma əsasında vətəndaşlara nazirliyə videozəng vasitəsilə müraciət edərək məsafədən müxtəlif ədliyyə xidmətlərindən (notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəməyə müraciət və məhkəmə qərarlarının icrası və s.) eyni vaxtda yararlanmaq imkanı verir. Həmçinin əhaliyə xidmət sahəsində ölkədə ilk dəfə bu platformada tətbiq edilən “süni intellekt” insanın davranışını vizuallaşdıraraq xidmət üçün müraciət etmiş şəxslə ünsiyyət qurur, istəyinə uyğun sənədlərin hazırlanmasını və təqdim olunmasını təmin edir.



Kompleksdə kamera tipli 7 korpus inşa olunub və burada hər cür şərait yaradılıb. Məhkumların hüquqlarının etibarlı təmin olunması məqsədilə onların ailələri ilə uzunmüddətli görüş üçün zəruri məişət avadanlığı ilə təchiz edilmiş 19 studio mənzil tipli otaqlar, habelə qısamüddətli görüşlər üçün kabinələr istifadəyə verilib. Burada məhkumların asudə vaxtlarını səmərəli keçirmələri üçün kitabxana, televizor otağı, idman meydançası var. Müəssisədə istehsalat sahələri yaradılıb, bərbərxana, dərzi xidmətləri təşkil edilib.

Diqqətə çatdırıldı ki, saxlanılan şəxslərə yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi üçün kompleksin müasir avadanlıqla və geniş dərman çeşidləri ilə təchiz olunmuş Tibb-sanitar bölməsi fəaliyyət göstərir. Bölmədə kardioloq, stomatoloq, fizioterapevt, rentgen, ultrasəs müayinəsi, cərrahiyyə, manipulyasiya, ambulator və stasionar şəraitdə müayinə və müalicə otaqları, laboratoriya, intensiv terapiya çarpayıları olan kamera-palatalar mövcuddur.

Kompleksdə saxlanılan şəxslər üçün, həmçinin psixoloq və ibadət otaqları ayrılıb. Eyni zamanda, məhbusların keyfiyyətli qidalanmasını təmin etmək üçün müasir avadanlıqla təchiz edilmiş mətbəx, yeməkxana, habelə sənaye tipli qurğuları olan camaşırxana yaradılıb. Mühafizəni təmin edən əsgərlər üçün ərazidə kazarma, təlim otaqları, qarovul binası, kinoloji mərkəz, avtopark inşa olunub.

Bundan əlavə, məhbusların məhkəmə iclaslarında məsafədən – videokonfrans vasitəsilə iştirakı, habelə telefon danışıqları və videogörüş üçün lazımi avadanlıqla təchiz olunmuş xüsusi otaqlar qurulub, istintaq hərəkətlərinin aparılması, vəkilləri ilə görüşləri üçün zəruri şərait yaradılıb.

Kompleksla tanışlıq zamanı dövlətimizin başçısına müəssisədə quraşdırılmış “ƏN TEZ” (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) Xidmət platforması nümayiş etdirilib.

Smart konsepsiyaya əsaslanan “ƏN TEZ” Xidmətində vətəndaşın şəxsiyyəti “Üztanıma” sistemi əsasında avtomatlaşdırılmış qaydada eyniləşdirilir, xidmət üzrə sənədlər isə ani vaxt rejimində icra edilərək yerindəcə çap olunur.

Bu yeni platforma Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST, habelə “ASAN xidmət” mərkəzlərində, Heydər Əliyev Beynəlxalq Aeroportunda artıq tətbiq edilir.

“ƏN TEZ” Xidmətin Lənkəran penitensiar kompleksində istifadəyə verilməsi məhkumlara, onlarla görüşə gələn vətəndaşlara, eləcə də müəssisənin əməkdaşlarına ədliyyə xidmətlərindən yerində bəhrələnmək imkanı verəcək.

Kompleksin yerləşdiyi ərazidə əməkdaşlar üçün altımərtəbəli 30 mənzilli xidməti yaşayış binası inşa edilib.

Prezident İlham Əliyevə Bakının Umbakı qəsəbəsində yeni istifadəyə verilmiş penitensiar kompleks barədə də məlumat verildi. Bildirildi ki, beynəlxalq standartlara uyğun inşa olunmuş Umbakı penitensiar kompleksi də qarışıq rejimli olmaqla iki zonadan – istintaq təcridxanasından və cəzaçəkmə müəssisəsindən ibarətdir. Təcridxanada təqsirləndirilən şəxslər, müəssisədə isə ağır və digər cinayət törətməyə görə azadlıqdan məhrum edilmiş məhkumlar saxlanılırlar. Kompleksdə 19 müxtəlif rejimli kamera tipli korpus mövcuddur. Burada məhkumların hüquqlarının daha etibarlı təmin olunması, yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi, asudə vaxtın səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, paytaxtda və bölgələrdə yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Bu müəssisələrdə yaradılan müasir şərait məhkumların hüquqlarının təminatına, onların öz ailələrinə yaxın ərazilərdə cəza çəkmələrinə və cəmiyyətə reinteqrasiyasına xidmət edir.

# “Laran” qənnadı müəssisəsi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəranda “Laran” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub.**

“Laran” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Nurlan Nurəliyev dövlətimizin başçısına müəssisədə yaradılan şərait və istehsal olunan məhsullar barədə məlumat verdi.

Bildirildi ki, ümumi dəyəri 5 milyon manat olan layihənin həyata keçirilməsinə dövlət dəstəyi olaraq Sahibkarlığın İnkişafı Fondu 1,2 milyon manat güzəştli kredit ayırıb. İllik istehsal gücü natura ifadəsində 2000-2500 ton (hazırda 1500-1800 ton istehsal edilir) olan müəssisədə 5 növdə və 56 çeşiddə, o cümlədən, karamel, lokum, şokoladlı lokum, marmelad, şokoladlı marmelad istehsal edilir. Burada quraşdırılan avadanlıq Braziliya, Türkiyə, Çin və Rusiya istehsalıdır. Müəssisədə istehsal edilən məhsullar daxili bazarla yanaşı, Rusiya, İsrail, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Moldova və İraqa da ixrac olunur.

Hazırda müəssisədə 120 nəfər çalışır. Ümumi sahəsi 4900 kvadratmetr olan müəssisənin ərazisində əsas bina, qazanxana, keçid məntəqəsi, yanğın əleyhinə su anbarı, transformator yarımstansiyası inşa edilib. Ərazidə geniş yaşıllıq sahəsi yaradılıb.

# Lənkəranda Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran şəhərində Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib.**

Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub.

# Neftçalada Ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiram



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Neftçala rayonunda da səfərdə olub.**

Dövlətimizin başçısı Neftçala şəhərində Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

# Neftçalada içməli su təchizatı sistemləri istismara verildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Neftçala şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Neftçala şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi dövlət büdcəsi hesabına həyata keçirilir. Layihə Neftçala rayonu üzrə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 89 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb.

Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq qısa müddət ərzində Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə qədər diametri 560 millimetr, uzunluğu 40 kilometr olan birinci magistral su kəməri çəkilib və Salyan şəhəri yaxınlığında tutumu 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında Neftçala şəhərinə suyun verilməsi təmin olunub. 2023-cü ildə Neftçala rayonunun qəsəbə və kəndlərinin su təchizatına xidmət edəcək diametrləri 560-450 millimetr, uzunluğu 36 kilometr olan ikinci magistral su kəmərinin tikintisi işləri yekunlaşıb.



Bununla paralel olaraq, Neftçala şəhərində ümumi uzunluğu 150 kilometr içməli su təchizatı şəbəkəsi inşa edilib və 5060 sayğac quraşdırılaraq şəhərin su təchizatı sisteminin yenidən qurulması işləri tam yekunlaşıb. Eyni zamanda, layihə çərçivəsində şəhərdə ümumi uzunluğu 145 kilometr tullantı su şəbəkəsi, 8,5 kilometr kanalizasiya kollektoru, 9 nasos stansiyası və məhsuldarlığı gündə 4 min kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası planlaşdırılır. Ötən dövr ərzində uzunluğu 9,6 kilometr kanalizasiya kollektoru və 1 nasos stansiyası inşa edilib.

Yeni yaradılmış infrastrukturun imkanları hesabına ötən müddətdə Neftçala şəhəri ilə yanaşı, rayonun içməli sudan əziyyət çəkən 39 yaşayış məntəqəsinin problemi həll edilib. Neftçala rayonunun qalan 11 yaşayış məntəqəsi və Salyan rayonunun 6 kəndi də daxil olmaqla, ümumilikdə 17 yaşayış məntəqəsinin su təminatının yaxşılaşdırılması məqsədilə 76 kilometr uzunluğunda kəmər, tutumu 7500 kubmetr olan su anbarı və 1 su nasos stansiyasının inşası layihələndirilib.

Qeyd olunub ki, indiyədək su xəttinin 64 kilometrlik hissəsi çəkilib, anbarların və nasos stansiyasının tikintisi davam etdirilir.

Prezident İlham Əliyev Neftçala şəhərinin içməli su təchizatı sistemlərini işə saldı.

***AZƏRTAC***




# 20 Yanvar faciəsinin ildönümünə paytaxtda hazırlıq

**20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar paytaxt Bakıda hazırlıqlara başlanılıb.**

Bakı Şəhər İcra Hakimiyyətindən bildiriblər ki, Şəhidlər xiyabanında 20 Yanvar faciəsinin otuz dördüncü ildönümü ilə bağlı hazırlıq işləri görülür.

Qeyd edilib ki, həmin ərazi daim Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətindədir. Ənənəvi olaraq xiyaban ərazisində müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub.

Bakı Şəhər İcra Hakimiyyətinin qurumları tərəfindən ənənəvi olaraq Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri görülür, ağacların budaqları, bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib, işıq dirəkləri rənglənir, səkilər və bütün ərazi yuyulur, xiyabandakı hər iki meşəldə profilaktika aparılır.

Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.

***XQ***



# Çabahar limanı niyə gündəmə gəlib?

## Ermənistanın İrandan Hindistana "dəhliz" xülyası

*(əvvəli 1-ci səhifədə)*

Çabahar İranın Sistan və Bəlucistan ostanının cənub-şərqində yerləşən şəhərdir. İranın Bəndər Abbasdan sonra ən böyüyü olan Çabahar açıq dənizə və okeana birbaşa çıxışı olan yeganə İran limanıdır. Limanın Əfqanıstan, Pakistan və Hindistan kimi ölkələrə coğrafi yaxınlığı, həmçinin beynəlxalq "Şimal–Cənub" nəqliyyat dəhlizində mühüm tranzit qovşağı olması Çabaharın regionun mühüm ticarət mərkəzlərindən birinə çevrilməsinə imkan yaradır. Bu üstünlüyü Hindistan da qəbul edir. Nyu Dehli İran limanını strateji rəqibləri olan Pakistanın və Çinin birlikdə inkişaf etdirdikləri Qvadar limanına alternativ layihə kimi nəzərdən keçirir. Bundan əlavə, Hindistan Mərkəzi Asiyaya ticarət yolunu açmaq üçün Çabahar limanına böyük maraq göstərir.



Xatırladaq ki, 2016-cı ildə regionda üçlü dəhlizin yaradılması məqsədilə imzalanan liman layihəsi Hindistan, İran və Əfqanıstanın birgə müəssisələrindən biridir. Sözügedən müqavilə Çabahar limanının inkişafına əsaslansa da, məsələ ondan ibarətdir ki, o, Hindistana İran vasitəsilə Əfqanıstana çıxışı təmin etməlidir. Siyasi müşahidəçilər bildirirlər ki, Çabahar limanı Hindistana Əfqanıstana gedərkən Pakistandan yan keçməsinə imkan yaradır. Buna görə də, Pakistanın İran–Hindistan–Əfqanıstan üçtərəfli ticarət sazişindən təsirlənən ölkələrdən biri olacağı deyilir. Ancaq ABŞ-ın Əfqanıstandan çıxması və Hindistanın Əfqanıstanda regional rəqiblərinin, o cümlədən, Çin və Pakistanın güclənməsi Nyu Dehlini İranla strateji əlaqələrini inkişaf etdirməyə vadar edir. Buna görə də, Çabahar limanının Hindistanın Pakistan və Çinlə strateji əlaqələrində və regional balansın formalaşmasında mühüm faktor olduğunu söyləmək olar. Bu kontekstdə "Brookings İnstitutu" "Hindistanın İranda strateji və iqtisadi maraqları" adlı hesabatında Çabahar limanının inkişafını Hindistanın İrana yönəlik çoxtərəfli strategiyasının təməl daşı kimi qiymətləndirir.

Analitiklərin sözlərinə görə, Hindistan Çabahar limanının inkişafı layihəsinə sərmayədar kimi daxil olandan bəri Yeni Dehli Əfqanıstanda təsirini artırmaq üçün ciddi çalışır. ABŞ sözügedən limanın inkişafını Əfqanıstanda iqtisadi sabitliyi dəstəkləmək və ölkənin inkişafına kömək etmək səbəbi ilə İrana qarşı tətbiq edilən sanksiyalardan azad etmişdi. Buna görə də Hindistan ABŞ-ın müttəfiqi olaraq Çabahar limanına sərmayə yatırdı, ancaq Əfqanıstanın Taliban hərəkatının nəzarətinə keçməsi Hindistanın planlarını çətinləşdirdi. Üstəlik, bu marşrutda sabitliyin nə vaxt əldə ediləcəyi bəlli deyil. Buna görə də, analitiklər Orta Dəhlizin həm Hindistan, həm də region dövlətləri üçün düşünülməli bir marşrut olduğunu önə çəkirlər. Xatırladaq ki, Orta Dəhliz Şərqlə Qərb arasında dayanıqlı logistikanın təşkili üçün ən optimal variant hesab olunur və həm Çin, həm də Avropa regionu ölkələri üçün nəqliyyat şaxələndirilməsinə ehtiyacları qarşılayan optimal həll yolu kimi qiymətləndirir. Bununla yanaşı, Çabahar limanı hazırda Qərb sanksiyalarından azaddır, lakin gələcəkdə vəziyyətin necə dəyişəcəyini proqnozlaşdırmaq çətindir.

Bütün bunlara baxmayaraq tərəflər layihəni inkişaf etdirməkdə maraqlı olduqlarını nümayiş etdirirlər. Yanvarın 15-də İran ilə Hindistan "İranın Çabahar limanının inkişafı üçün əməkdaşlıq haqqında" sənəd imzaladılar. Sənədə əsasən tərəflərin iştirakı ilə işçi qrupu yaradılacaq. İşçi qrupu Çabahar limanının tranzit, yükaşırma imkanının artırılmasına və texniki təchizat məsələlərinə baxacaq. İran naziri Mehrdad Bazarpaşın sözlərinə görə, Çabahar limanının inkişafı "Şimal–Cənub" dəhlizinin də tranzit imkanlarını artıracaq. Çabahar limanı Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında böyük rol oynayır. Hindistanın Mumbai limanından yüklər İranın Çabahar limanına, buradan isə Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu ilə Rusiya və Avropa ölkələrinə daşınacaq.

İran və Azərbaycan beynəlxalq layihədə tranzit ölkə kimi çıxış edirlər. Ermənistan da bu tranzitə qoşulmaq və Hindistandan Avropaya daşınacaq yüklərdən gəlir götürmək istəyir. Amma nəzərə alsaq ki, Ermənistan üzərindən Gürcüstana məhsul daşımaq qış aylarında xeyli müşkül məsələyə çevrilir, o zaman İrəvanın ancaq Hindistandan nəsə almaq arzusu real görünə bilər. Bu mənada isə Azərbaycanın heç bir problemi yoxdur və ölkəmiz "Şimal–Cənub" dəhlizinin vacib qovşağı olaraq qalır. Tranzit geosiyasətində küləklərin hansı istiqamətdə əsməsindən asılı olmayaraq, bütün oxlar Bakını göstərir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Fransa ermənilərı yasa batıblar

## Raşida Datinin mədəniyyət naziri təyin olunması hayları pəjmürdə edib

*(əvvəli 1-ci səhifədə)*

Byusson sosial şəbəkədəki paylaşımına Fransanın sabiq prezidenti Fransua Ollandın və Azərbaycan Prezidenti İlham Əliyevin təsvir olunduğu 2016-cı ilə aid bir fotoşəkili əlavə edib. Fotoşəkil 10 fransız deputat və senatorun Azərbaycan və Ermənistan arasındakı münaqişədə Azərbaycanın xeyrinə qərar qəbul etmək üçün prezident Ollandı BMT-də vasitəçiliyə çağırmasından sonra çəkilib. 2016-cı ildə Raşida Dati "Le Figaro"nun əməkdaşı ilə söhbətində bildirmişdi ki, yaxşı azərbaycanlılar pis ermənilərin qurbanı olub.

Qeyd edək ki, Mərakeş əsilli, 1965-ci il təvəllüdlü R.Dati Fransada Azərbaycana müsbət münasibət bəsləyən, nazir təyin edildikdən sonra ermənilərin narazılığına səbəb olan azsaylı siyasətçilərdən biridir. R.Dati ölkəmizin yaxın dostu olmaqdan qürur duyduğunu dəfələrlə bəyan edib. Bununla bağlı narahatlığını Fransanın Erməni Təşkilatlarının Koordinasiya Şurasının sədri Murada Papazyan, "Nouvelles d'Armenie" jurnalının baş redaktoru Ara Toranyan və İl-de-Frans şəhər şurasının üzvü Patrik Karam da bildiriblər.

Ötən ilin iyulunda Raşida Dati bildirmişdi ki, Azərbaycan dini və etnik qruplar arasında əlaqələr baxımından bütün dünya üçün nümunə ola bilər.

"Mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa böyük töhfə verən Azərbaycanın rolunu xüsusilə qeyd etmək istərdim. UNESCO bəyan edib ki, bu ölkədə təhsil səviyyəsi 95 faiz təşkil edir. Bu da əla göstəricidir. Azərbaycanın inkişafı çox böyük təəssürat yaradır", – deyə əlavə etmişdi. R.Dati bildirmişdi ki, Azərbaycan dini və etnik qurumlar arasında əlaqələr, onların əsrlər boyu dinc yanaşı yaşaması baxımından bütün dünyaya nümunə ola bilər.

R.Dati qeyd etmişdi ki, o, hər il Bakıya gəlir və hər gəlişində yeni Azərbaycanı kəşf edir, gözəl adət-ənənələrlə tanış olur: "Azərbaycan, həqiqətən, zəngin mədəniyyətə malik ölkədir. Mən bunu siyasətçi kimi yox, bu ölkəni bütün qəlbi ilə sevən bir insan kimi deyirəm. Azərbaycan xalqı əsrlər boyu bu dəyərləri qoruyub saxlamış, öz mədəniyyəti ilə fəxr edir və dövlət siyasəti mədəniyyətin milli qürur subyekti kimi yerləşdirilməsinə yönəlib".

R.Dati Azərbaycanın Dostları Assosiasiyasının İdarə Heyətinin üzvüdür. O, ölkəmizdə və regiondakı vəziyyəti yaxşı bilir. Hər zaman Azərbaycana qarşı ədalətli mövqeyi ilə seçilib, buna görə tez-tez erməni lobbisinin tənqid və təxribat hədəfinə çevrilib.

Ermənistanın "Armenian report" saytı R.Datinin nazir təyin olunmasından narahatlığını "Fransa səhv edir: Paris onu düzəltməlidir" məqaləsi ilə ifadə edib. Yazıda qeyd olunub ki, ermənilər bir çox yaxşılıqlara görə Fransaya minnətdardır, lakin bu Avropa ölkəsinin rəhbərliyi bəzən etməməli olduğu işlər görür: "Fransanın yeni təyin olunmuş xarici işlər naziri Stefan Sejurne bazar günü Almaniyaya, bazar ertəsi isə Polşaya səfər edəcək. Səfərdə məqsəd Ukraynanın problemlərini Avropa orqanlarında qaldırmaqdır. Sejurne Almaniyada ölkənin xarici işlər naziri Annalena Berbok, Polşada isə ölkənin xarici işlər naziri Radoslav Sikorski ilə görüşəcək. Bəli, biz Fransanın Rusiya–Ukrayna müharibəsində getdikcə daha fəal rol oynamağa necə can atdığını görürük. Stefan Sejurnenin XİN rəhbəri kimi ilk səfərini Kiyevə etməsi çox əlamətdardır. Bəli, Parisdə Böyük Britaniya ilə ayaqlaşmağa çalışırlar. London artıq Ukrayna ilə təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında saziş imzalayıb. Sənədə Ukrayna Prezidenti Vladimir Zelenski və Böyük Britaniyanın Baş naziri Rişi Sunak imza atıblar. Böyük Britaniya dünyada Ukrayna ilə əməkdaşlığa dair belə bir sənəd imzalayan ilk ölkə oldu. Müqavilə Ukraynanın təhlükəsizliyinə dəstək məqsədilə Britaniya və Ukrayna arasında hərbi və qeyri-hərbi əməkdaşlığı rəsmiləşdirir. Parisdə hamı bunu gördü və ildırım sürəti ilə cavab vermək qərarına gəldilər. Bəs Cənubi Qafqaz və niyə biz Fransadan Ermənistana eyni dərəcədə ildırım sürətli dəstək görmədik?!"

"Armenian report" yazır: "Bakıda Fransanın müttəfiqini onun ərazisinə hücumlarla hədələsələr də (?) Parisdən səs çıxmır. Sadə dillə desək, bizim Fransadan Ermənistana dəstək üçün güclü addımlar atacağını gözləməyə haqqımız var. Ancaq hələlik biz tamamilə fərqli mənzərə görürük. Raşida Datinin Fransanın yeni



mədəniyyət naziri təyin edilməsi şokedici xəbərdir. Bu xanım çox bədnamdır".

Sayt daha sonra qeyd edib ki, hər bir halda, Azərbaycanı, onun siyasətini açıq dəstəkləyən xanımın belə yüksək posta təyin olunması absurd və qəbuledilməz vəziyyətdir: "Bu, heç də Fransa rəhbərliyinin görməli olduğu iş deyil. Ancaq gördüyümüz kimi, bu, belədir. Raşida Datinin təyinatı Azərbaycanı sevindirməyə xidmət edir. Fransa bu addımı ilə bizim gözümüzdə nüfuzunu itirir. Parisin etdiyi səhvi düzəltməsi lazımdır. Və nə qədər tez düzəltsə, onun özü üçün bir o qədər yaxşıdır".

Göründüyü kimi, ermənilər Fransa hökumətindəki yeni təyinatla bağlı xeyli pəjmürdə olublar. Onların belə halla üzləşməsi isə ilk dəfə deyil. Artıq dünyanın bir çox yerlərində hayların xislətinə bələddirlər. Fransadakı təyinat isə onlar üçün aydın səmada çaxan şimşək effekti yaradıb. Dünya ermənilərinin bundan sonra da oxşar hallarla üzləşməyəcəyi istisna deyil. Çünki bu, haqq-ədalətin təntənəsidir. Haqq isə gec-tez öz yerini tapır.

***Səxavət HƏMİD***
***XQ***

Köşə

# Simonyan da Bakıda çay içmək istəyir?

**Ermənistan parlamentinin spikeri Alen Simonyan Bakıda çay içməkdən danışıb. Yox, elə düşünməyin ki, Qarabağdakı keçmiş separatçı rejimin rəhbərlərini yada salıb paytaxtımızın həbsxanalarının xiffətini çəkir. Belə deyil. Onun söylədikləri, nə qədər də qəribə səslənsə də, tarixin ibrət dərsləri kimi meydana çıxmaqdadır. Ancaq Simonyan dərs çıxarmağı təlqin edirmi? Əlbəttə ki, yox!**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Əslində, erməni spiker son dərəcə vacib məqama toxunmaqdadır. Onun bildirdiklərindən belə çıxır ki, hazırda Azərbaycan Ermənistana dərs verir. Nəyin dərsini? Əlbəttə, Simonyan konkretləşdirmək istəmir. Görünür, xəstə erməni ictimai rəyindən qorxur.

Məsələn, baş parlamentari deyə bilərdi ki, Ermənistan Azərbaycanın torpaqlarının işğal edib və bu müddət 30 ilə yaxın sürüb. Bu zaman kəsiyində ölkənin bir milyona yaxın vətəndaşı öz dədə-baba yurdundan, doğma el-obasından məhrum durumda didərgin həyatı yaşamağa məcbur olub. Hələ bu siyahıya Xocalı faciəsini, üstəlik, bu qətliamı törədən cəlladların xalq qəhrəmanı kimi qəbul olunmalarını, onların öz əməllərinə görə öyünmələrini və mövcud xüsusda Azərbaycan xalqını aşağılamalarını da sala bilərdi. Bu barədə söhbət açmayan Simonyan birbaşa Bakıda çay içmək üzərində dayanır. Necə deyərlər, söhbəti kəsə edir...

Ancaq A.Simonyan yalnız Bakıda çay içməkdən söz açmır. Yəni, bu onun vurğuladıqlarının, belə demək mümkünsə, kulminasiya anıdır. Erməni spiker bildirir ki, Azərbaycanın gördüyü işlər, bir növ, güzgü effekti verir və rəsmi Bakı Ermənistan rəhbərliyinin illər ərzində Azərbaycana qarşı etdiklərini təkrarlayır. Yəni, Simonyanın ölkəmizə qarşı ittihamı budur. Başlıca məqam isə ondadır ki, bu adam yarımçıq təfəkkürünə güc verib Ermənistanın sabiq iqtidarı ilə Azərbaycan rəhbərliyini eyniləşdirir...

Bəli, Ermənistan parlamentinin spikerinin bildirdikləri qəribədir. Qəribəlik həm də onun öz ölkəsinin müstəqillik dövründə keçdiyi yolu inkar etməkdədir. Belə çıxır ki, illər ərzində Ermənistanda hakimiyyət kürsüsündə oturanlar vandallar imiş və hazırda Azərbaycan onların etdiklərini təkrarlamaqdadır. Halbuki, belə deyil. Ölkəmizin və xalqımızın istəyi ədalətdir. İlahi ədalət!

Göründüyü kimi, A.Simonyanın məntiqi, kifayət qədər, qarışıqdır. O bildirir ki, güzgü ritorikasına üstünlük verən Azərbaycan hakimiyyəti Ermənistanın illərlə yaratdığı rəvayətlərə əks balans formalaşdırmaqla məşğuldur. Mövcud anlamda onu, müəyyən mənada, haqlı saymaq mümkündür. Çünki Azərbaycan dövləti və xalqı özündə erməni avantürizminə qarşı müqavimət formalaşdırmağa köklənib. Ona görə köklənib ki, tarixin acı dərslərindən nəticə çıxarır və nəticə çıxarmağa məhkumdur. Başqa yol, sadəcə, yoxdur!

A.Simonyanın bildirdikləri fonunda belə bir sual da yaranır: İrəvanda indi hakimiyyətdə olanlar erməni deyil? Bəlkə, onlar öz keçmişlərini danırlar? Yoxsa, müasir dövlətçiliklərindən imtina edirlər, yeni Ermənistan qurmaq niyyətindədirlər? Görəsən, Simonyanın yadına yeni Ermənistan qurmaq nə üçün indi düşüb? Olmazdımı ki, həmin Ermənistan 2018-ci ildə qurulaydı? Söhbət heç bir ambisiyası olmayan, qonşuları ilə sağlam münasibətlərə üstünlük verən yeni Ermənistandan gedirsə. Axı, bunun üçün real şans yaranmışdı? Yaxşı, tutaq ki, Bakıda çay içmək barədə danışıb hədə-qorxu dilini işə salanlar Qarabağdakı separatçılar olublar və onların əsas dəstəyi Ermənistanın keçmiş xunta rejimi idi. Axı "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verən ekslər və onlara yaxın olan separatçılar deyildilər. Bu bəyanatı verənlər özünü demokratik şəkildə, ümumbəşəri dəyərlərə sadiqlik ruhunda yaşandığı bildirilən inqilabi proses nəticəsində hakimiyyətə yiyələnənlər idilər.

Bəli, baş nazir Nikol Paşinyan idi Xankəndinin mərkəzi meydanında çıxış edərək "Qarabağ Ermənistandır və nöqtə" deyib bağıran. Şuşada, Cıdır düzündə şərab içib sərxoş vəziyyətdə yerə sərilərək Azərbaycan xalqının hissləri ilə oynayan da o olmuşdu. Üstəlik, "yeni ərazilər üçün yeni müharibə" məntiqini işə salanlar Simonyanın komandasında yer alanlar idilər. Yəni, erməni spiker heç cür deyə bilməz ki, o, həmin vaxt ölkəsinin ali qanunverici orqanın sədri vəzifəsində deyildi. Onun bu postda olub-olmamasının heç bir önəmi yoxdur. Axı, Simonyanın vacib post tutduğu demokratik adlandıran komandanın üzvlərindən sayılan Armen Qriqoryan (Ermənistanın təhlükəsizlik şurasının katibi - red) 2020-ci ildə Tovuz istiqamətində yaşanmış hərbi insidentdən sonra xalqımızı qeyzləndirən məqalə yayımlamış və bildirmişdi ki, hazırkı Azərbaycan Ermənistanla bacara bilməz və sair ilaxır... Nəhayət, Cəbrayıla yol çəkən Paşinyan idi, Serj Sarkisyan və ondan əvvəlki Ermənistan prezidenti Robert Koçaryan yox! Paşinyan belə sərsəm fikirlər gündəmə gətirdiyi üçün, 44 günlük müharibə dövründə və ondan sonra Azərbaycanda dillərdə əzbər olmuş "Noldu, Paşinyan?" deyimi meydana çıxdı.

A.Simonyan Ermənistanın paytaxtı İrəvanın qədim Azərbaycan şəhəri olduğuna dair ölkəmizin ictimai rəyində güclənmiş fikrə də münasibət bildirməkdədir. Yəni, o, belə bir fikrin yaranmasına görə dolayısı ilə ermənilərin özlərini günahlandırmaqdadır. Ola bilər, ürəyindən bunları da keçirməkdədir: 1918-ci ildə azərbaycanlılar bizə İrəvanı vermişdilər ki, özümüzə paytaxt edək. Bəs nə üçün Zəngəzuru da ələ keçirdik? Nəyə görə Qarabağ iddiasına düşdük? Hansı səbəbdən Naxçıvanın da Ermənistan ərazisi olduğunu bildirməyə başladıq? Nəhayət, bizə lazım idimi deyək ki, azərbaycanlıları Bakıya qədər qovacağıq?..

Bəli, A.Simonyan, əslində, Ermənistan cəmiyyətinə subliminal mesaj verməkdədir. Bəlkə, özü nə dediyinin fərqində deyil. Onun yuxarıda vurğuladığımız fikirləri gündəmə gətirməklə, ümumən, belə demək mümkünsə, siyasi fəlsəfəyə üstünlük verməklə, ölkəsinin əvvəlki iqtidarına qarşı yükləndiyindən də söz açdıq. Ancaq, hər bir halda, erməni spikerin dilə gətirdikləri ümumerməni avantürizmi kontekstində meydana çıxan məsələlərdir.

Sonda onu da bildirək ki, Ermənistan parlamentinin spikeri haqqında söz açdığımız mətləbləri Bakı–İrəvan sülhü müstəvisində səsləndirməkdədir. O deyir ki, hər şeyi güzgü üsulu ilə həyata keçirən Azərbaycan sülh müqaviləsinin şərtlərinin də tərəflərə bərabər tətbiqini irəli sürməkdədir. Deyəsən, məsələnin mahiyyətini gerçək şəkildə dərk edən tək erməni elə onun özüdür.

# XXI əsr “intellektual müharibələr” məngənəsində: total savaş növü



## II MƏQALƏ

***“XXI əsr müharibəsi” epizodlarından çıxara bildiyimiz müdriklik rəqibin dövlətçilik və siyasi strukturunu tamamilə “əritmək” imkanıdır. Bununla, onun silahlı qüvvələrini mənasız edirsən.***

**A.A.Karabelnikov, A.A.Solovyov**

### “Müdrik müharibə”nin bəşəri faciələri

Sokratın qəbri, yəqin ki, çat vermişdir. O, kütləvi qırğın törətməyi, dövləti və siyasi strukturu “müdriklik” adlandıranları anlayardımı? Görəsən, Makedoniyalı İsgəndər belə bir bənzətmə aparsaydı, Aristotel ona neçə şallaq vurdurardı? Yaxud özünün “Nikomaxova etika”sını yazardımı?

Çin “Böyük modernləşmə” adı altında fəaliyyət planı və ya kursu kimi ölkənin hərtərəfli tərəqqisini nəzərdə tutur. Orada ən müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xüsusi aktuallıqla vurğulanır. Pentaqonun məruzəsindən görünür ki, Çin “Böyük modernləşmə” dedikdə məhz insan intellektinin ən son nailiyyətlərinin davamlı olaraq Çinin müdafiə konsepsiyasında, ordu quruculuğunda geniş istifadə edilməsini diqqətdə saxlayır. Amerikalıların təxmininə görə, bunu bir neçə mərhələdə həyata keçirmək niyyətindədirlər. Cəmi 7 mərhələ olmalıdır. Artıq Çin 5-ci mərhələni başa vurmuşdur. 2027-ci ildən “Böyük modernləşmə”nin yeni mərhələləri dövriyyəyə girməlidir. Proses 2049-cu ildə tamamlanmalıdır ki, nəticədə Çin ordusunun dünya miqyasında birinci yeri tutması təmin olunmalıdır.

Biz burdan o tərəfə ayrıntılar üzərində dayanmaq istəmirik. Çünki məqsəd Çinin modernləşməsini təhlil etməkdən ibarət deyildir. Burada bizim üçün maraqlı olan insan intellektinin nailiyyətlərindən hansı yöndə və necə istifadə etmək məqsədinin araşdırılmasıdır.

Belə görünür ki, Çin süni intellekt də daxil olmaqla insan zəkasının bütün potensialından müxtəlif sahələrdəki rəqabətdə üstünlüyü ələ almaq üçün yararlanmağa çalışır. Və bu özəllik yalnız Çinə aid deyil. ABŞ, Avropa, Rusiya və digər iddialı dövlətlər məhz intellektual potensialdan başqalarından üstün olmaq (yalnız, sırf sosial, mədəni, ekoloji, elmi kimi mülki aspektlərdə deyil) naminə maksimum istifadə etmək niyyətindədirlər. Bəlkə də məhz bu aspektdə H.Kissincerin xəbərdarlıqları əhəmiyyət daşıyır. Burada təbii bir sual meydana çıxır: konkret olaraq intellektdən necə istifadə etmək planları vardır?

### “Vurucu zəka”: bu, doğrudanmı zəkadır?

İntellektdən istifadənin gizli üzünü görmək üçün öncə insan zəkasının xarakterinə baxmaq lazımdır. Qədimdən insan zəkasının bir üzü Xeyir, digər üzü isə Şər olmuşdur. Onları filosoflar da bir-birindən ayırmamışlar. Lakin XXI əsrin reallıqları göstərir ki, bu cür dixotomiya (yunancadan tərcümədə tamın “ikiyə bölünməsi”ni ifadə edir) artıq olduqca təhlükəlidir. Çünki zəka elə qloballaşmış və universallaşmışdır ki, onun fəzilətli olmasından başqa yol qalmamışdır. Fəzilətlilik isə hər şeydən öncə xeyirxahlığı, quruculuğu, tərəqqini, birləşdirməyi tələb edir. Buna görə də əgər insan zəkası yaradıcı gücünü yeni silahlar və müharibə növləri ixtira etməyə yönəldirsə və bununla rəqib üzərində qələbə çalacağını düşünürsə, hər şeydən öncə, özünü məğlub etmiş olur. Ona görə ki, özgəsinə hərbi savaşla qalib gəlmək həmişə nisbidir. Ulu öndər Heydər Əliyev öyrədirdi ki, “heç kim əbədi qalib ola bilməz”. Xüsusilə insan zəkasının ən son nailiyyətlərini hərbi savaşlara yönəltməyin nəticələri çox ağır ola bilər.

Bunlar göstərir ki, insan intellektindən yeni müharibə növləri kəşf etmək və yeni silahlar icad etmək üçün istifadə ümumbəşəri fəlakətlərə aparıb çıxarır. Lakin bu prosesi hələ dayandıran yoxdur. Əksinə, böyük güclər yeni-yeni müharibə növləri axtarmaqdadırlar.

### “Hibrid müharibə”: gizli, səngərsiz və məkrli

“Hibrid müharibə” (hybrid warfare) konsepsiyasının müəllifi keçmiş dəniz piyadası, hazırkı ABŞ Müdafiə Nazirliyinin elmi əməkdaşı Frenk Hoffmandır. Onun tərifində vurğulanır ki, hibrid müharibədə hücum edən tərəf klassik üsuldan istifadə etmir. Lakin öz rəqibini gizli əməliyyatlar, təxribatlar, kibersavaşlar vasitəsilə məhv edir. Bu zaman düşmən ərazisində olan qruplarla əməkdaşlıq mümkündür. Maraqlıdır ki, hibrid müharibə real olaraq hərbi texnika vasitəsilə aparılmaya da bilər. Burada informasiya texnologiyası ilə təxribat, düşmən içində olan cinayətkar qruplar, müxtəlif etirazçılar, üsyançılar ön plana çıxarılır. Məsələn, bir ölkə ilə hibrid savaş həmin ölkə daxilində cinayətkar qrupların fəallaşması formasında aparıla bilər. Kənardan baxanda mənzərə cinayətkarların bir-biri ilə hesablaşması kimi görünür. Lakin onu kənardan xüsusi qrup idarə edir və prosesi maksimum dərəcədə uzadır. Sonu bitməyən cinayətkarlar savaşı tədricən cəmiyyətin şüurunu kriminallaşdırır, onu mənəvi-əxlaqi cəhətdən parçalayır və sosial mühit ayrı-ayrı fraqmentlərə bölünür.

Son illər bu əlamət əsas olaraq bir neçə istiqamətdə özünü daha çox göstərir. Narkoticarətlə məşğul olan qrupların bir-biri ilə hesablaşması və “qanuni oğrular”ın qarşıdurması. Bu iki prosesi bir-biri ilə əlaqələndirirlər də. Elə görünür ki, söhbət nüfuz dairəsinin qruplardaxili paylaşmasından gedir. Bunu təmin edən xüsusi KİV orqanlarıdır. Onlar hadisələri məhz xüsusi xidmət orqanlarının qarışmadığı və cinayətkarların bir-biri ilə savaşdığı kimi təqdim edirlər. Deməli, burada təxribat, aravurma və informasiya manipulyasiyaları ciddi surətdə dövriyyədə olur. Nəticədə hətta böyük ölkələrdə belə narkobaronların və “qanuni oğrular”ın savaşı cəmiyyəti silkələyir, insanların psixologiyasına kriminallığın müsbət obrazını yeritmək imkanı qazandırır.

İctimai şüur üçün cinayətkarlıq nümunə olursa, həmin cəmiyyətin əsl inkişafı mümkün deyildir – o, sonu olmayan intriqalar, hesablaşmalar və bir-birinə nifrət bəsləmək kimi “ölüm dairəsi”nə düşür. Bununla hibrid müharibə uzun sürən prosesdə sifarişçinin bir güllə belə atmadan cəmiyyətin daxildən özünü parçalaması kimi məqsədinə çatmış olur.

Tədqiqatçılar hibrid müharibə ilə bağlı başqa bir maraqlı məqamı da vurğulayırlar. Onlar bu savaş növünü “kəskinləşmiş siyasi böhran”dan yüksək səviyyədə görürlər. Hesab edirlər ki, siyasi böhranın ən kəskin mərhələsində məhdud miqyasda hərbi güc tətbiq edilə bilər (əsas olaraq muzdlular, “proksilər” vasitəsilə). Lakin bu zaman siyasi, informasiya-psixoloji, iqtisadi və s. vasitələrdən daha geniş istifadə olunar.

Bir başqa yanaşmada (Con Makkeynin yanaşmasında) simmetrik və asimmetrik hərbi əməliyyatların bir-biri ilə kombinasiyası önə çəkilir. Onda bütün müharibə növləri potensial olaraq hibrid müharibə kimi təsəvvür oluna bilər.

Konsepsiyanın müəllifi F.Hoffman isə hibrid müharibəni daha geniş kontekstdə xarakterizə edir. O, simmetrik, asimmetrik hərbi əməliyyat aparmağı savaşın “hibridliyi”nin alt elementləri kimi təqdim edir. Hibrid müharibə prinsipcə çox müxtəlif üsullarla aparıla və çoxvariantlı ola bilər. Bura dövlər sistemindən kənar hərbi qruplaşmalar, terror aktları və kriminalların yaratdığı xaos da daxildir. Təbii ki, bu cür müxtəliflik avtomatik olaraq insan intellektinin nailiyyətlərindən maksimum istifadəni nəzərdə tutmalıdır. Burada süründürməçi partizanlıq, tələ qurmalar, kustar üsulla düzəldilmiş partlayıcılar və qətllər yer alır. Dövlətin yüksək texnoloji imkanları ilə (məsələn, kibersavaş aparmaq imkanları, maliyyə savaşları və s.) münaqişənin fiziki və psixoloji aspektlərinin sinergetik effektinə nail olmaq bu prosesdə bir-birini tamamlayır.

Deməli, hibrid müharibədə başlıca məqam savaşda fiziki, psixoloji, sosial, humanitar, kriminal, maliyyə, siyasi, iqtisadi, idarəetmə, mədəni, əxlaqi, mənəvi və s. sferaların sinergetik effekt üzrə iflic edilməsi məqsədi qarşıya qoyulur.

### İntellekt belə dəhşət yaratmalıdırmı?

Bu qısa təqdimatdan belə aydın olur ki, hibrid müharibə hansı səviyyədə məhvedici və dağıdıcıdır. Burada klassik mənada “adam kimi savaşmaq” qaydası yoxdur. Qarşı tərəfi məhv etmək üçün bütün mümkün üsullardan istifadə edilir. İnsan zəkasının hərbi taktika və strategiya ilə bağlı əldə etdiyi nailiyyətlər, hərbi texnika, lokal hərbi əməliyyatlar, informasiya-kommunikasiya texnologiyasından maksimum istifadə arxadan zərbələr və digər metodlar keçərlidir. Hətta cinayətkarlar da müharibəyə gizli və hiyləgərcəsinə daxil edilir.

Belə bir şəraitdə müharibəni necə qazanmaq olar? Və, ümumiyyətlə, bu cür müharibəni udmaq nə deməkdir? Bu suala özünü qalib tərəf sayan da cavab verə bilməz. Çünki elə məhvedici proseslər baş verir ki, bütövlükdə insanlıq, bəşəriyyət itirir. Bu yolun həqiqi qalibi ola bilməz. Yəni hibrid müharibədə hamı uduzur!

Daha dərindən baxanda söhbət, ümumiyyətlə, cəmiyyətlərin insan toplumu kimi məhv edilməsindən getdiyini anlamış oluruq. Bu isə faktiki olaraq yekunda dünyanı məhv etmək deməkdir. Çünki yeni intellektual müharibələri getdikcə daha çox sayda dövlətlər mənimsəyir və başqalarına qarşı istifadə edirlər. İndi bu səbəbdən kimsə təhlükədən sığortalanmamışdır. Nümunə kimi ABŞ-da olan 11 Sentyabr terrorunu, hazırda Rusiya və İsrailin asimmetrik zərbələr almasını və dünyanın ən inkişaf etmiş ölkələrdə daxili təhlükəsizliyin təminində ciddi problemlərin yaranmasını göstərə bilərik.

Digər tərəfdən, Pentaqonun məruzəsi də göstərir ki, Çin kimi yüksək texnologiyalar izində olan ölkələr intellektdən həm də başqasına qarşı gizli, sürətli, genişmiqyaslı, qarşısının alınması daha üstün intellekt tələb edən həmlələr kimi istifadə etməyə başlayıblar.

İndi dünyaya bu cür proseslərin getdiyi mürəkkəb sistem kimi baxaq. Asan görünür ki, insan intellektinin kreativ gücü sinergetik effektlə daha təhlükəli olur. Bu güc bir-biri ilə uzlaşanda böyük dağıdıcı qüvvəyə çevrilir. Bu da o deməkdir ki, potensial olaraq dünya qlobal sistem kimi özünü məhv etmək imkanına malik olmuşdur!

Nə qədər paradoksal olsa da, intellekt faktiki olaraq özü-özünü məhv etməyin astanasına çatmışdır. Doğrudanmı, o, inkişafının “doyma nöqtəsi”ndədir və qısa müddətdə bunu real faciəyə çevirə bilər? Bu sualın cavabı qeyri-müəyyəndir və bizcə, kökü sosial mühitdədir. Yəni söhbət insan intellektindən gedirsə, onun necə fəaliyyət göstərməli olduğunu da insan həll edir! Deməli, humanist, fəzilətli insan olduğu yerdə intellekt təhlükəli deyildir. Onu təhlükəli edən insanların niyyətləridir.

O baxımdan hibrid müharibəni nəzəri araşdıranlar “hibrid sülh” anlayışını da daxil edirlər. Beləliklə, bütövlükdə, “hibrid müharibənin hibrid sülhü” kimi əcaib bir ifadə formalaşır. Belə çıxır ki, sülh, barış “hibriddirsə”, onda onun müharibəsinin də “hibrid” olması normaldır. Elə məsələ də həmin “normallıq təsəvvürü” ilə əlaqəlidir. Şüurun bu “normal vəziyyətə” alışması faciənin başlanğıcı olur.

Onu deyək ki, bu əcaib “sülh küləyi” Cənubi Qafqaza da gəlib çatmışdır. Analitiklər Azərbaycanla Ermənistan arasında sülhü “situativ sülh”, yəni müvəqqəti, keçici sülh, başqa məqamda asanlıqla pozula bilən ortaq razılıq durumu kimi ifadə edirlər. Burada hər hansı təminatdan və etibardan söhbət gedə bilməz. Onda bu vəziyyət niyə sülh adlanır?

Bu suala cavab axtaran yoxdur, lakin diplomatların “hibrid razılaşmaya gələ bilib-bilmədikləri ilə bağlı suallar qoyulur. Budur, artıq politoloqlar və analitiklər sualı belə qoyurlar: “əgər hibrid müharibə varsa, onu hibrid sülhə transformasiya etmək olarmı?” (bax: *Тимофеев, И. Гибридная война и гибридный мир РСМД, 04.10.2023// https://russiancouncil.ru/analytics-and-comments/analytics/gibridnaya-voyna-i-gibridnyy-mir/.*

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Mətbuat Şurası seçkilərdə jurnalistlərə yardımçı olacaq

**Azərbaycan Respublikasının Seçki Məcəlləsi, “Media haqqında” qanun və digər normativ hüquqi aktlar KİV-lərin seçki prosesində sərbəst fəaliyyətinə təminat verir. Seçki prosesini idarə edən rəsmi qurumlar da KİV və jurnalistlərin peşə funksiyalarını icra etmələri üçün hər cür şərait yaradırlar. Fikrimcə, KİV-lər də bu münasibətə adekvat davranırlar. Bu baxımdan KİV və jurnalistlərin indiki seçki prosesini işıqlandırmaları yönündə hər hansı problem görünmür.**



“XQ”nin məlumatına görə, bunu “Seçki-2024.az” saytına açıqlamasında Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib.

Qeyd edib ki, Mətbuat Şurası KİV-lərin və jurnalistlərin seçki prosesində peşəkar davranmalarına dəstək olmaq üçün addımlar atacaq: “Bütün məsələlərdə olduğu kimi, seçki prosesində də fəaliyyətlər peşəkar prinsiplərə əsaslanmalıdır. Şura adətən belə hallarda istiqamətverici tövsiyələr açıqlayır. Bu dəfə də ənənəmizi davam etdirəcəyik. Hesab edirik ki, həm Mətbuat Şurasının tövsiyələri, həm də Mərkəzi Seçki Komissiyasının təlimatları KİV və jurnalistlərimiz üçün yardımçı vəsait rolunu oynayacaq”.

Mətbuat Şurasının səsvermə günü ilə bağlı planlarından danışan Rəşad Məcid deyib: “Əsas məqsədimiz jurnalistlərin seçkini sərbəst işıqlandırmalarına yardımçı olmaqdır. Bu yöndə fəaliyyətlərimizdən biri səsvermə günündə “qaynar xətt”in yaradılması olacaq. “Qaynar xətt” üçün müəyyənləşdirilmiş mobil və sabit telefon nömrələri əvvəlcədən elan ediləcək. Seçki prosesini işıqlandıracaq jurnalistlər həmin nömrələrlə əlaqə saxlamaq imkanı əldə edəcəklər. Jurnalistlərin fəaliyyəti ilə əlaqədar hər hansı anlaşmazlıq yaranarsa, operativ şəkildə aradan qaldırılacaq. Bunun üçün müvafiq instansiyalarla əlaqələndirilmiş iş aparılacaq. Səsvermə günü üçün digər bir planımız dairə və məntəqələrdə canlı müşahidəçiliyin təşkilidir. Mətbuat Şurasının İdarə Heyətinin üzvləri paytaxt və bölgələrdə seçki dairələrində, məntəqələrdə olacaq, jurnalistlərin peşə fəaliyyətini gerçəkləşdirmələri üçün yaradılmış vəziyyəti müşahidə edəcəklər”.

***XQ***

# XİN Fərid Səfərlinin İranda həbsini diqqətdə saxlayır

**Ötən il martın 4-də İranda həbs olunmuş Azərbaycan vətəndaşı Fərid Qabil oğlu Səfərlinin həbsindən və onun barəsində məhkəmə qərarı verildikdən sonra F.Səfərlinin valideyni oğlunun durumundan narahatlıq ifadə edib, məsələ ilə bağlı Azərbaycanın dövlət qurumlarına yardım üçün müraciət ünvanlayıb.**

Bu barədə XİN Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə yerli medianın sualını cavablandırarkən deyib.

O bildirib ki, nazirliyin 2023-cü il 9 mart, 2 iyun və 2 avqust tarixli mətbuat açıqlamalarında qeyd olunduğu kimi, Fərid Səfərli barədə məlumat daxil olan gündən vətəndaşın aqibətinin və sağlamlıq vəziyyətinin öyrənilməsi, İran tərəfindən məsələyə aydınlıq gətirilməsi, vətəndaşın məhkəmə-prosessual hüquqlarının qorunması, eləcə də vəkillə təmin olunması istiqamətində həm XİN, həm də ölkəmizin Təbriz şəhərindəki baş konsulluğu tərəfindən bütün mərhələlərdə müvafiq iş aparılıb.

Ötən il iyulun 19-da keçirilmiş məhkəmə iclası zamanı F.Səfərliyə qarşı irəli sürülmüş “casusluq” ittihamı “casusluq etmək niyyəti” ittihamı ilə əvəzlənib. Növbəti mərhələdə məhkəmənin qərarı ilə onun həbsi barəsində hökm 2 il yarım müddətinə tətbiq edilib.

Bununla yanaşı, İranın Təbriz şəhərindəki Azərbaycanın baş konsulluğunun əməkdaşları F.Səfərli ilə həbsxanada mütəmadi olaraq görüşlər keçirir və onunla ailə üzvləri arasında telefon əlaqəsi yaradılır.

Fərid Səfərlinin hüquq və mənafelərinin qorunması istiqamətində Azərbaycan Hökuməti tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

***XQ***

# Qarabağda silah-sursat anbarı aşkarlanıb

**Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdikləri lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ iqtisadi rayonunda tərk edilmiş tikililərə baxış zamanı növbəti silah-sursat anbarı aşkarlanıb.**



Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Ermənistan silahlı qüvvələri birləşmələrinin və qeyri-qanuni silahlı dəstələrinin hərbi məqsədlər üçün istifadə etdiyi mülki təyinatlı infrastrukturdan silah və sursatla dolu yeşiklər, müxtəlif tipli qumbaraatanlar üçün mərmilər, piyada və tank əleyhinə minalar və raketlər müsadirə edilib.

***XQ***

# Səudiyyə Ərəbistanı Qarabağda minatəmizləməyə dəstək verəcək



**Səudiyyə Ərəbistanı Krallığının hökuməti bu ölkənin Kral Salman Humanitar Yardım Mərkəzi vasitəsilə Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyi göstərəcək.**

Bu məqsədlə yanvarın 16-da Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov və Kral Salman Humanitar Yardım Mərkəzinin Tibb və Ətraf Mühit Departamentinin direktor müavini Abdullah Məhəmməd Əlvadeyi arasında Maliyyə Yardımı Memorandumu imzalanıb.

***XQ***

# Seçkilərdə medianın hüquqları, vəzifə və məsuliyyəti



**Növbədənkənar prezident seçkiləri ilə əlaqədar dünən Mərkəzi Seçki Komissiyasının nəzdində Mətbuat qrupunun iclası keçirilib. Qrupda təmsil olunan MSK üzvləri və qrup üzvü olan müvafiq media qurumları nümayəndələrinin, habelə beynəlxalq müşahidəçinin iştirak etdiyi iclasda əvvəlcə prezident seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqat proseslərinin gedişi barədə məlumat verilib.**

Qeyd edilib ki, yanvarın 15-dən etibarən seçkiqabağı təşviqat başlanıb və bu mərhələ səsvermənin başlanmasına 24 saat qalmış bitəcək. Müxtəlif siyasi partiyalar tərəfindən irəli sürülən, eləcə də öz təşəbbüsü ilə seçkilərə qatılan 7 namizəd qeydə alınaraq demokratik seçki mübarizəsinə qoşulub. Eyni zamanda, seçkiqabağı təşviqatın aparılması üçün geniş imkanlar və hərtərəfli şəraitin təmin olunması diqqətə çatdırılıb. Prezidentliyə namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşləri üçün 125 seçki dairəsi üzrə 139-u açıq, 139-u qapalı olmaqla, ümumilikdə 278 yerin ayrılması barədə məlumat verilib.

Bütün təşviqat subyektləri üçün ödənişsiz olan bu yerlərdə, heç bir icazə almadan, sadəcə, digər namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların görüşləri ilə üst-üstə düşməsin deyə, dairə seçki komissiyalarını əvvəlcədən məlumatlandırmaqla seçicilərlə görüşlər keçirmək olar. Diqqətə çatdırılıb ki, Seçki Məcəlləsi qanunvericiliklə qadağan olunmayan digər yerlərdən istifadə edilməsinin mümkünlüyünü də təsbit edir. Namizədlər tərəfindən müraciət olunarsa, bütün təşviqat subyektləri üçün bərabərlik prinsipi gözlənilməklə və eyni əsaslarla, dairə seçki komissiyalarının yerli qurumlarla əməkdaşlığı şəraitində başqa məkanların təmin olunması da nəzərdə tutulur.

Bu seçkilərdə "Azərbaycan" , "Xalq qəzeti", "Bakinski raboçi" və "Respublika" qəzetlərində də dərc imkanı yaradılıb. Bununla da ödənişsiz əsaslarla seçkiqabağı təşviqat aparılması mümkün olan dövrü nəşrlərin sayı 4-ə çatdırılıb. Ödənişli əsaslarla seçkiqabağı təşviqat aparılması üçün mediadan daxil olan və təmin edilən 44 müraciət, əvvəlki illərlə müqayisədə medianın qarşıdan gələn seçkilərdə daha yüksək fəallığının göstəricisidir.

İctimai televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq – həftəlik 6 saat ödənişsiz efir vaxtı ayrıldığı da diqqətə çatdırılıb. Qeyd olunub ki, hüququ olan subyektlər həmin vaxtın 3 saatını televiziyada, 3 saatını isə radioda "dəyirmi masa" formatına uyğun istifadə edirlər. Yanvarın 15-də İctimai Televiziya və Radio Yayımları Şirkətində ilk debat keçirilib və qanunvericiliklə ziddiyyət təşkil edən hər hansı bir hal baş verməyib. Efir vaxtı müntəzəm olaraq günün daha baxımlı vaxtlarında – həftədə 3 gün hər dəfə 1 saat olmaqla saat 21:00-da televiziya izləyicilərinə, 3 gün də hər dəfə 1 saat olmaqla saat 21:00-da radio dinləyicilərinə təqdim olunacaq. Debatlar ilk dəfə İctimai Televiziya və Radio Yayımları Şirkətinin rəsmi sosial media hesabından birbaşa yayımlanır ki, bu da namizədlərin seçkiqabağı platformasının daha geniş auditoriyaya çatdırılmasında əlavə bir vasitə kimi önəmli rol oynayır.

İclasda MSK nəzdində Mətbuat qrupunun funksiya, səlahiyyət və vəzifələri də bir daha xatırladılıb. Qeyd edilib ki, fəaliyyəti Seçki Məcəlləsi və MSK tərəfindən qəbul edilmiş müvafiq əsasnamə ilə tənzimlənən Mətbuat qrupu mediada seçkiqabağı təşviqatın aparılması qaydalarına əməl olunmasına nəzarəti həyata keçirir. Üzvlərinin əksəriyyətinin jurnalistika sahəsində çalışan mütəxəssislərdən ibarət olan qrup öz fəaliyyətində seçkiqabağı təşviqata dair qanunvericiliklə müəyyən olunmuş tələbləri, MSK tərəfindən qəbul edilmiş, eləcə də digər normativ xarakterli aktları rəhbər tutur. Mətbuat qrupu, həmçinin mediada seçkiqabağı təşviqatın aparılmasının müəyyən olunmuş qayda və üsullarına əməl edilməsi üçün tədbirlər görür, zəruri hallarda həmin müraciətlər üzrə təkliflərini MSK-nın müzakirəsinə çıxarır.

İclasda medianın seçkilərdə rol və vəzifələrindən də söhbət açılıb və qeyd olunub ki, seçkiləri mediasız təsəvvür etmək qeyri-mümkündür. Media seçkilərdə azad və sərbəst şəkildə iştirak edir, ictimaiyyətin məlumatlandırılmasına mühüm töhfələr verir. Həm proseslərin aşkarlığının və şəffaflığının təmin olunmasında, həm seçkiqabağı təşviqat mərhələsində, həm də səsvermə günü öz peşə fəaliyyətini yerinə yetirərkən qanunvericilik media üçün hüquqlarla yanaşı, vəzifə və məsuliyyətlər də müəyyən edir. Seçki prosesinin bütün iştirakçıları Seçki Məcəlləsinin və müvafiq qanunvericiliyin tələblərinə dəqiqliklə riayət etməlidirlər.

İclasda, həmçinin prezident seçkiləri ilə əlaqədar zərurət yarandıqda və ya aidiyyəti üzrə müraciət daxil olduqda Mətbuat qrupunun növbəti iclaslarının keçirilməsinin mümkünlüyü də diqqətə çatdırılıb.

Sonda seçkilərin mediada işıqlandırılması, seçkiqabağı təşviqatla bağlı ümumi tələblər, bu mərhələdə iştirak hüququ olan subyektlərin rol və vəzifələri, habelə mətbuat qrupunun funksiyaları ilə bağlı müxtəlif məsələlər ətrafında geniş müzakirələr aparılıb və iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Azad edilmiş ərazilərdə seçkiyə hazırlıq

**Növbədənkənar prezident seçkiləri ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edəcək. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda bu məqsədlə 26 seçki məntəqəsi yaradılıb.**



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Mərkəzi Seçki Komissiyasının nümayəndələri seçkilərə hazırlığın vəziyyətini öyrənmək üçün işğaldan azad olunmuş Ağdərə, Kəlbəcər, Laçın, Şuşa, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Xankəndi ərazisində yaradılan seçki məntəqələrinə baxış keçiriblər. Seçkiyə hazırlığın vəziyyəti məntəqə sədrləri və üzvləri ilə birgə müzakirə edilib.

Bildirilib ki, seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün hər cür şərait yaradılıb. Bütün seçki məntəqələri lazımi avadanlıq və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Məntəqələrə seçki qutuları və lazımi inventar avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqatın aparılması və təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər müəyyənləşdirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdirinin müavini Niyaz Əliyev jurnalistlərə müsahibəsində bildirib ki, Azərbaycan öz dövlət suverenliyini tam bərpa etdikdən sonra ölkəmizin bütün ərazisində ilk dəfə olaraq keçiriləcək prezident seçkilərinin azad, demokratik və şəffaf şəkildə təşkili üçün şəhər və rayonlarda böyük hazırlıq işləri aparılır. Artıq 6319 seçki məntəqəsi seçkilərə tam hazırlıq vəziyyətinə gətirilib. Min seçki məntəqəsinə veb-kameraların quraşdırılması təmin edilib: "Biz Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin tapşırığına əsasən işğaldan azad olunmuş ərazilərdəyik və bu ərazilərdə seçkilərə hazırlığın vəziyyətini öyrənirik. Azad olunmuş ərazilərdə 26 seçki məntəqəsi təşkil edilib. Bu seçki məntəqələrində 22 minə yaxın seçici qeydə alınıb. Bu seçicilərin 3700 nəfəri həmin ərazilərə daimi yaşamaq üçün köçənlərdir. 18 min nəfərdən çoxu isə tikinti-quruculuq işlərində çalışan vətəndaşlardır.

O qeyd edib ki, Mərkəzi Seçki Komissiyasının nümayəndələri ilə bir yerdə seçki məntəqələrinin monitorinqi keçirilir. Bütün seçki məntəqələrinin maddi-texniki təchizat məsələləri öz həllini tapıb. Seçki məntəqələri etibarlı rabitə, fasiləsiz elektrik enerjisi ilə təmin olunub. Əminliklə deyə bilərik ki, Azərbaycan vətəndaşlarının bütün ölkə ərazisində olduğu kimi, işğaldan azad olunmuş ərazilərdə də rahat səs verməsi üçün hər cür şərait yaradılıb. Seçkilərin azad, demokratik və şəffaf şəkildə keçirilməsi təmin olunacaq.

Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadənin sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə seçki məntəqələri üçün yüksək səviyyədə binalar ayrılıb: "Hər bir seçki məntəqəsi lazımi kommunikasiya ilə təmin olunub. Seçki məntəqələrinin yerləşdiyi otaqların təchizatı başa çatdırılıb. Məntəqələrə elektrik enerjisinin fasiləsiz verilməsi nəzarət altındadır. Mərkəzi Seçki Komissiyası olaraq, biz də seçki məntəqələrini lazımi təchizatla təmin etmişik. Seçki məntəqələri seçki günü istifadə olunacaq ultrabənövşəyi lampalar, səsvermə kabinələri, şəffaf seçki qutuları, seçici siyahıları və digər sair ilə təchiz olunub".

***XQ***

**Azərbaycan xalqı özünün çoxəsrlik tarixində növbəti əlamətdar günlərini yaşayır. Fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Bu seçkiləri əlamətdar edən ən mühüm məqam sözsüz ki, onun ölkəmizin hər bir yerində keçirilməsidir. Bəli, Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyini bərpa etməsindən bəri ilk dəfə olaraq səsvermə bütün ərazilərimizdə baş tutacaq.**

Seçkiqabağı dövrün ən həyəcanlı mərhələsi, sözsüz ki, təbliğat-təşviqat dövrüdür. Seçki Məcəlləsinə görə, prezident seçkilərində təşviqat səsvermə gününə 23 gün qalmış başlanmalı və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılmalıdır. Növbədənkənar prezident seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planına əsasən, bu müddət yanvarın 15-dən fevralın 6-sı saat 08:00-dək olan müddəti əhatə edir.

# "Xalq qəzeti"ndə püşkatma keçirildi

## *Prezidentliyə namizədlərin ödənişsiz təşviqat materiallarının verilmə ardıcıllığı*



Növbədənkənar prezident seçkilərində namizədliyi qeydə alınan şəxslərə seçkiqabağı təşviqat aparmaq məqsədilə ödənişsiz əsaslarla dərc üçün yer ayrılmalı olan media subyektlərindən biri də "Xalq qəzeti"dir. Yanvarın 16-da "Xalq qəzeti"ndə təşviqat materiallarının dərc yerinin bölgüsü məqsədilə püşkatma keçirildi.

Prezidentliyə namizədliyi Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən qeydə alınmış şəxslərin səlahiyyətli nümayəndələrinin iştirak etdikləri tədbirdə çıxış edən "Xalq qəzeti" baş redaktorunun birinci müavini Qüdrət Piriyev prezident seçkilərinin ölkəmiz üçün mühüm hadisə olduğunu diqqətə çatdırdı. O, seçkiqabağı dövrdə aparılan təbliğat-təşviqat prosesinin də önəmli rola malik olduğunu vurğuladı. Redaksiyada təşviqat işinin MSK-nın "Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında" təlimatına əsasən müəyyən edildiyini bildirdi.

Baş redaktorun birinci müavini əlavə etdi ki, təşviqat müddəti ərzində 7 namizədin təşviqat materialları qəzetin şənbə və bazar günləri saylarında dərc olunacaq. Təşviqat materialları hər namizəd üçün B-2 formatlı qəzetdə bir səhifə, yəni, 1600 kvadratsantimetr həcmində nəzərdə tutulur.

Sonra namizədlərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə qəzetdə dərc ediləcək ödənişsiz təşviqat materiallarının ardıcıllığını müəyyənləşdirən püşkatma keçirildi. Püşkatmanın nəticəsinə əsasən, materialların dərc ardıcıllığı belə müəyyənləşdi:

1. Qüdrət Həsənquliyev
2. Fuad Əliyev
3. Razi Nurullayev
4. İlham Əliyev
5. Zahid Oruc
6. Elşad Musayev
7. Fazil Mustafa

Püşkatmadan sonra prezidentliyə namizədlərin səlahiyyətli nümayəndlərinin fikirlərini öyrəndik. Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyevin səlahiyyətli nümayəndəsi Əhliman Tağıyev dedi: "Bugünkü püşkatmanın keçirilməsindən razıyıq. Çox açıq, şəffaf, demokratik keçirildi. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, görüləcək işlərlə bağlı izahatlar verildi. Bu izahatlardan da razıyıq. Biz bir xalq olaraq, ilk dəfə Zəfər seçkisi keçiririk. Hamı üçün düşərli olsun. Obyektiv, ədalətli seçki mühiti yaradılıb. Hər kəsdən bu mühitdən yararlanmasını istəyirik. Zənnimcə, hər birimiz xalqımız, ölkəmiz üçün xeyirli olan nə varsa, onları etməliyik. Püşkatmanın keçirilməsində əməyi olan hər kəsə təşəkkür edirəm və bütün namizədlərə uğurlar arzulayıram".

Öz təşəbbüsü ilə namizədliyi irəli sürülmüş Zahid Orucun səlahiyyətli nümayəndəsi İlqar Kərimov: "Püşkatma şəffaf keçirildi. Çox razı qaldıq. Seçkilər xalqımız və dövlətimiz üçün xeyirli olsun".

Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafanın səlahiyyətli nümayəndəsi Leyla Musayeva da püşkatma prosesinin şəffaf və qanunauyğun keçirildiyini qeyd etdi. Bildirdi ki, hər bir səlahiyyətli nümayəndə təmsil etdiyi namizədin adı yazılmış kağızı özü qutudan çıxarıb: "Yerlər bu qayda ilə müəyyən olundu. Tam qanunauyğundur və prosesdən razıyıq".

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyevin səlahiyyətli nümayəndəsi Yaşar Kələntərli püşkatma prosesinin tam demokratik şəraitdə keçdiyini vurğuladı: "Heç bir problem olmadı. Bütün namizədlərə uğurlar arzulayıram. İnşallah, bu seçkidən xalqımız, dövlətimiz qalib ayrılacaq. Əminəm ki, hər bir namizəd qalib gələn şəxsin əlini sıxaraq onu təbrik edəcək. Həmin günü səbirsizliklə gözləyirik. Demokratiya da elə budur".

Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayevin səlahiyyətli nümayəndəsi Fikrət Cəfərov isə dedi: "Bu gün "Xalq qəzeti"ndə prezidentliyə namizədlərin ödənişsiz təşviqat materiallarının dərc ardıcıllığını müəyyənləşdirən püşkatma baş tutdu. Mərasim açıq və şəffaf keçirildi. Heç bir narazılığımız yoxdur. Yekunda qazanan xalqımız olacaq".

Qeyd edək ki, prezidentliyə namizədlərin təşviqatı MSK-nın müəyyən etdiyi bir televiziya kanalı ("İctimai") və dörd mətbu nəşrdə – "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzetlərində aparılacaq.

***Səxavət HƏMİD***
***XQ***

# "Bakinski raboçi" qəzetində ödənişsiz təşviqatın ardıcıllığı

**Prezidentliyə namizədlərin "Bakinski raboçi" qəzetində ödənişsiz təşviqatının ardıcıllığı müəyyən edilib.**

Bu barədə AZƏRTAC-a qəzetin redaksiyasından məlumat verilib.

Püşkatmadan əvvəl prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələri ilə görüşdə redaksiyanın seçkilərlə bağlı fəaliyyətinin Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında" təlimatına uyğun olaraq təşkil edildiyi bildirilib.

Təşviqat materialları hər namizəd üçün ödənişsiz əsaslarla B2 formatlı qəzetdə bir qəzet səhifəsi, 1630 kvadratsantimetr, ümumən 33 min 600 kvadratsantimetr, yəni, 7 səhifə yer ayrılacaq.

Sonra təşviqat materiallarının qəzetdə dərc ardıcıllığını müəyyən etmək məqsədilə püşkatma keçirilib. Püşkatmanın nəticəsində təşviqat materialları dərc olunacaq prezidentliyə namizədlərin ardıcıllığı aşağıdakı kimi müəyyənləşib:

1. İlham Əliyev
2. Zahid Oruc
3. Elşad Musayev
4. Razi Nurullayev
5. Qüdrət Həsənquliyev
6. Fazil Mustafa
7. Fuad Əliyev

Daha sonra prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələri püşkatmanın şəffaf və obyektiv keçdiyi ilə bağlı fikirlərini bölüşüblər.



# Paytaxtın Baş planı ictimaiyyətə təqdim olunub

## Bakı sənaye şəhərindən yeni yaşayış meqapolisinə çevriləcək

*(əvvəli 1-ci səhifədə)*

Tədbir zamanı, həmçinin Bakı şəhərinin yeni Baş planına dair məlumat xarakterli videoçarx, sənədin üstünlükləri, ən önəmli məqamları və xüsusi maraq doğuran bir sıra məsələləri əhatə edən geniş təqdimat nümayiş olunub.

Xatırladaq ki, 4 mühüm istiqamətə əsaslanan Baş plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə 2040-cı ilədək olan müddət ərzində şəhərin əsas inkişaf prioritetlərini özündə əks etdirir. Bura paytaxtın dayanıqlı inkişafı, şəhər və ətraf mühitin bərpası, memarlıq irsinin qorunması və yeni şəhər iqtisadiyyatının formalaşdırılması kimi vacib məsələlər daxildir. Baş plana uyğun olaraq vahid mərkəzli aqlomerasiya olan Bakı növbəti inkişaf mərhələsində rahat, ekoloji cəhətdən təmiz, mobil, insanyönümlü və inklüziv çoxmərkəzli şəhərə çevriləcək.



Təqdimat mərasimində Bakı şəhərinin yeni Baş planının təsdiq edilməsinin təqdirəlayiq hal olduğu, sənədin paytaxtımızın inkişafı istiqamətində mühüm əhəmiyyəti vurğulanıb. Tədbirin sonunda qonaqlar tərəfindən dayanıqlı şəhər mühiti, əsaslı tikinti, nəqliyyat və sosial infrastruktur və digər mühüm tədbirlər haqqında ətraflı müzakirələr aparılıb. Bununla yanaşı, nəzərdə turulmuş tədbirlərin vətəndaşların gündəlik həyatına təsiri və əhalinin bütün təbəqələri üçün lazımi xidmətlərə əlçatanlığın təmin edilməsi ilə bağlı müxtəlif sual və təkliflər səsləndirilib.

Tədbirdən sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev yerli mediaya bir sıra maraqlı açıqlamalar verib. Onun sözlərinə görə, Bakıda neft sənayesinin çirkləndirdiyi ərazilər təmizlənəcək və ora yenidən həyat qayıdacaq. Bununla yanaşı, paytaxtda su hövzələri yaradılacaq, şəhərin gələcək təmizliyi nəzərə alınacaq. Baş plana əsasən, Bakının sənaye şəhəri deyil, insanyönümlü şəhər olmasına doğru addımlar atılacağını vurğulayan komitə sədri deyib ki, paytaxtın inkişafı gələcəkdə dövlət və özəl sektorun birgə tərəfdaşlığı çərçivəsində davam edəcək.

### Ekspert rəyi



**Nizami QASIMOV,**
**Əməkdar memar**

**Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə xarici şirkət tərəfindən hazırlanmış Bakı şəhərinin yeni Baş planı paytaxtımızın simasına əlavə yaraşıq gətirəcək. Qeyd etmək istəyirəm ki, paytaxtın yeni inkişaf konsepsiyasını özündə əks etdirən bu sənədin hazırlanmasında bütün dövlət qurumlarının rəyi nəzərə alınıb. Bu baxımdan, deyə bilərəm ki, mənim və həmkarlarımın Memarlar İttifaqı və Dövlət Turizm Agentliyi tərəfindən keçirilən toplantılarda iştirak etdiyimiz zaman verdiyimiz təkliflərin də böyük əksəriyyəti Baş planda öz əksini tapıb. Bu da bizim üçün olduqca qürurvericidir.**

**Baş planda ən çox diqqətçəkən məsələlərdən biri paytaxtda bir neçə lokal mərkəzin yaradılması ilə bağlıdır. Yeni yaradılacaq mərkəzi rayondakı mövcud binaların bir çoxu tarixi memarlıq abidələri olduğundan onlar qorunub saxlanılacaq. Bundan əlavə, paytaxtın dəniz boyu əraziləri inkişaf etdiriləcək, mövcud bulvar 20-ci sahəyə və Zığa doğru genişləndiriləcək.**

**Məlum olduğu kimi, son illər insanlar daha çox mərkəzdə yaşamağa, fəaliyyət göstərməyə can atırlar. Sevindirici haldır ki, Bakıda yaradılacaq 6 lokal mərkəz paytaxtın mərkəzi hissəsi ilə eynilik təşkil edəcək. Bundan da məqsəd odur ki, insanlar istədiklərini orada görsünlər.**

**Digər diqqətçəkən məqamlardan biri də Baş planda paytaxtın nəqliyyat infrastrukturuna xüsusi yer ayrılması ilə bağlıdır. Nəqliyyatın da ən vacib istiqamətlərindən biri metrodur. Səhv etmirəmsə, Baş planda 23 yeni metrostansiyanın yaradılması nəzərdə tutulur. Bu da onu göstərir ki, Bakının metro şəbəkəsi çoxşaxəli olacaq, paytaxtın ucqarlarına kimi genişləndiriləcək. Metro ilə yanaşı, tramvay və elektrik qatarlarının hərəkəti üçün yeni polad magistrallar yaradılacaq ki, bu da şəhər əhalisinə göstərilən nəqliyyat xidmətinin keyfiyyətcə yaxşılaşmasına səbəb olacaq.**

**Yeni Baş planda paytaxtın şimal girişindən olan yola alternativ magistralın yaradılması nəzərdə tutulur ki, bu da Bakı–Sumqayıt istiqamətində müşahidə olunan tıxacların aradan qaldırılmasına imkan yaradacaq. Yeri gəlmişkən, Baş planda nəzərdə tutulmuş tədbirlərin reallaşdırılmasına, ümumilikdə, 93 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulur ki, bunun da 17 milyard manatının məhz nəqliyyat infrastrukturunun yenilən qurulması istiqamətində xərclənməsi planlaşdırılır. Ümumi vəsaitə gəlincə isə, bu, dövlət və özəl sektor tərəfindən təmin olunacaq.**

**Biz turizm marşrutları üzrə də müəyyən təkliflər vermişdik. Bu da onunla bağlı idi ki, Bakı dəniz şəhəri olsa da, dənizi lazımınca seyr edə bilmirik. Çünki dəniz üzrə turizm marşrutları çox zəif idi. O vaxt təklif vermişdik ki, sahil boyu bir neçə kiçik liman yaradılsın. Həmin limanlardan həm daşımalarda, həm də turizm gəzintilərində istifadə oluna bilər. Sevindirici haldır ki, Baş planda bu məsələ də nəzərə alınıb.**

**Əsas odur ki, gələcəkdə istər yeni yaşayış massivlərinin və parkların salınmasında Baş plandan kənara çıxılmasın. Əminəm ki, Baş planın reallaşdırılmasına başlanması ilə bütün xaotik tikintilər, inşaat sahəsində çalışan iş adamlarının subyektiv yanaşmaları aradan qaldırılacaq. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu işə ciddi nəzarət etməlidir. Bütün şəhər ictimaiyyəti kimi, memarların da istəyi odur ki, paytaxtımız daha da inkişaf etsin, gözəlləşsin.**

Hazırda paytaxtda kifayət qədər qəzalı vəziyyətə düşmüş binaların olduğunu bildirən A.Quliyev jurnalistlərə açıqlamasında deyib ki, Baş plana əsasən, yaxın illərdə Bakıda mənzil fondunun yenilənəcəyi planlaşdırılır. “Mənzil fondunun yenilənməsi prosesi bu gün də dövlətin müəyyən dəstəyi ilə və investorların cəlb edilməsi ilə davam edir və gələcəkdə də davam edəcək”, – deyə komitə sədri əlavə edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Bank sektorunun xalis mənfəəti 1,76 milyard manata çatıb

**2024-cü il yanvarın 1-nə Azərbaycanın bank sektorunun aktivləri 49 milyard 178,2 milyon manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çoxdur.**



Bankların aktivlərinin 21 milyard 844,6 milyon manatını müştərilərə verilmiş xalis kreditlər təşkil edib. Son 1 ildə ölkədə bank sektorunun kredit portfeli 18,5 faiz genişlənib, kreditlərin aktivlərdəki payı isə 39,2 faizdən 44,4 faizə qalxıb.

Bununla yanaşı, ötən il Azərbaycanın bank sektoru 1 milyard 75,9 milyon manat xalis mənfəət əldə edib. Bu da 2022-ci illə müqayisədə 17,65 faiz çoxdur.

## İqtisadiyyata investisiya qoyuluşu 10 faiz yüksəlib

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkədə əsas kapitala 20 milyard 297 milyon manat məbləğində, yaxud 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönəldilib.**



Məlumata görə, neft-qaz sektoruna yatırılan investisiyaların həcmi 10,9 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 9,3 faiz artıb. İstifadə olunan vəsaitin 12 milyard 485 milyon manatı və ya 61,5 faizi məhsul istehsalı sahələrinə, 6 milyard 840 milyon manatı (33,7 faizi) xidmət sahələrinə, 971 milyon manatı (4,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilən vəsaitlərin 16 milyard 412 milyon manatını və ya 81 faizini daxili vəsaitlər təşkil edib. Həmin vəsaitlərin 14 milyard 560 milyon manatı və ya 72 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

## Orta aylıq əməkhaqqı 11 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin 11 ayında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,2 faiz artaraq 923 manat təşkil edib.**

Məlumata görə, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq əməkhaqqı daha yüksək olub.

2023-cü il dekabrın 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 733 min nəfər olub, onlardan 900 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 833 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

***XQ***

# Yeni sənaye zonaları qeyri-neft sektorunu genişləndirir

## Ötən il 12 müəssisənin tikintisinə 135 milyon manat vəsait qoyulub

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarına ötən il fəaliyyətə başlamış 12 müəssisənin 135 milyon manat investisiya yatırdığını, həmin sərmayələrin hesabına 744 daimi iş yerinin yaradıldığını bildirib.**

Mikayıl Cabbarov digər bir paylaşımında isə İZİA tərəfindən 2023-cü ildə rezidentlik verilən 26 sahibkarlıq subyektinin Azərbaycanda sənaye zonalarına və məhəllərinə 471 milyon manat investisiya yatıracağını vurğulayıb.

Nazir qeyd edib ki, bunlardan 7-si Ağdam, 5-i “Araz Vadisi İqtisadi Zonası”, 8-i Sumqayıt Kimya, 3-ü Pirallahı sənaye parklarının, 1-i Hacıqabul, 2-si isə Sabirabad sənaye məhəllələrinin rezidenti kimi qeydiyyata alınıb. Rezidentlər tərəfindən 3 min 100-dən çox iş yerinin yaradılması nəzərdə tutulub.

Xatırladaq ki, hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Mingəçevir, Pirallahı, Qaradağ, Ağdam, Balaxanı və “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları), 5 sənaye məhəlləsi (Hacıqabul, Neftçala, Masallı, Sabirabad və Şərur sənaye məhəlləri) fəaliyyət göstərir. Mövcud sənaye zonalarında investisiya həcmi 7 milyard manatdan çox olan 138 sahibkarlıq subyekti rezidentlik statusu daşıyır.

İZİA-nın məlumatına görə, indiyədək sənaye zonalarına 6,6 milyard manat investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 864 milyon manat investisiyanın yatırılması, 6 min 700-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Sənaye zonalarında indiyədək, ümumilikdə, 11,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 3,6 milyard manatlıq hissəsi dünyanın 60-dan çox ölkəsinə ixrac olunub.

Yeri gəlmişkən, respublikamızın bütün ərazilərində olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda da sənaye park və məhəllələrinin yaradılması xüsusi diqqətdə saxlanılır. Belə müəssisələrdən biri hazırda Ağdamda yaradılır. Rayondakı Sənaye Parkında divar kağızları, ayaqqabı, dam örtüklərinin, boru və qutu profillərin, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatların istehsalını həyata keçirən müəssisələrdə tikinti işlərinin 2024-cü ildə yekunlaşdırılması nəzərdə tutulur.

Ümumi ərazisi 190 hektar olan bu Sənaye Parkına indiyədək 12 milyon manatdan çox investisiya yatırılıb. Qısa müddətdə burada bir sıra tikinti və layihələndirmə işləri aparılıb, eyni zamanda, beton istehsalı müəssisəsi fəaliyyətə başlayıb.

İZİA-nın məlumatına görə, Ağdam Sənaye Parkında 25 sahibkarlıq subyekti artıq qeydiyyatdan keçib. İnvestorlar tərəfindən parka 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulub. Artıq burada 10-dan çox rezident tikinti-quraşdırma işlərinə başlayıb. Cari ilin ilk rübündə 7-dən çox müəssisəsinin istifadəyə verilməsi planlaşdırılıb.



Ağdam Sənaye Parkının yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Parkın prioritet istiqamətləri isə tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin,

Dövlət başçısının 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən yaradılan “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının isə artıq 5 rezidenti və 1 qeyri-rezidenti var. Cəbrayıl rayonunda fəaliyyət göstərən parka, ümumilikdə, 33 milyon manata yaxın investisiyanın yatırılması, burada 420-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında da sahibkarlar üçün əlverişli biznes mühiti formalaşdırılıb. Tikinti aparılacaq sahənin su və işıqla təmin edilməsi məqsədilə subartezian quyusu qazılıb, 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb.

Qarabağ və Şərqi Zəngəzurda yaradılan sənaye parklarının rezidentlərinin səmərəli fəaliyyəti üçün qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Həmçinin Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, işğaldan azad olunan ərazilərdə fəaliyyət göstərəcək sahibkarlara əlavə güzəştlər tətbiq edilir. Bura sosial sığorta haqlarının subsidiyalaşdırılması, düşməndən təmizlənən yaşayış sahələrində məskunlaşaraq işləyən mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət verilməsi, aylıq vəzifə maaşına əlavələrin hesablanması, 600 manat birdəfəlik müavinət verilməsi, iş icazələrinin alınmasının sadələşdirilməsi kimi imtiyazlar daxildir. İşğaldan azad olunan ərazidə fəaliyyət göstərən sahibkarın istehsal prosesində istifadə edəcəyi bir sıra xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən azad olunur.

Qeyd edək ki, respublikada fəaliyyət göstərən sənaye parkları və məhəllələrində sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etmələri üçün əlverişli şərait yaradan, eyni zamanda, 2016-cı ildən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq müddət ərzində 583 layihə təşviq olunub. Həmin layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq investisiya yatırılıb, 38,6 mindən çox iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək dəyəri 1,8 milyard manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə ölkəyə idxal edilib və müasir istehsal sahələri qurulub.

Təşviq edilmiş layihələrin icrası nəticəsində respublikada yeni məhsullar istehsal edən müəssisələr yaradılıb. Prezident İlham Əliyevin 20 dekabr 2022-ci il tarixli müvafiq fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. Bu sənəd 2023-cü il yanvarın 1-dən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları, həmçinin müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyənləşdirilən istiqamətlər üzrə strateji təşəbbüslərə verilib.

Yeni meyarlara ekoloji baxımdan mühüm önəm daşıyan tullantıların təkrar emalı fəaliyyət sahəsi də əlavə olunub, eyni zamanda, turizm istiqamətli fəaliyyət sahələri genişləndirilib. Mexanizm çərçivəsində layihələr üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiqlənib.

Sənaye park və məhəllələri xarici investisiyaların ölkəyə cəlbində və qeyri-neft sektorunun inkşafında mühüm rol oynayırlar. Onlar yeni texnologiyaların ölkəyə transfer olunmasında, bununla da rəqabətqabiliyyətli əmtəələr istehsal edilməsində daha çox fərqlənirlər. Eyni zamanda, yerli şirkətlər sənaye park və məhəllələrinin yaradılması ilə bağlı beynəlxalq təcrübədən bəhrələnməklə həmin texnologiyalar əsasında yeni milli istehsal müəssisələrinin açılmasına böyük maraq göstərirlər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 14** **Bakı şəhəri, 12 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nda, 2006-cı il 4 dekabr tarixli 255 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarəti obyektlərinin baytarlıq (baytarlıq-sanitariya) ekspertizasının aparılması Qaydaları"nda, 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də, 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nda, 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda, 2010-cu il 25 noyabr tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları"nda və 2011-ci il 9 mart tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nın "1A004, c kateqoriyası"nın "Adları" sütununun "Qeyd" hissəsinin b) bəndində və "ML7 kateqoriyası"nın "Adları" sütununun "3. hərbi təyinatlı döyüş sursatlarına və ya materiallarına tətbiq edilməsi üçün xüsusi təyinatı olan ML7.h.1. yarımbəndində göstərilən "biokatalizatorlar"ın tətbiqi "texnologiya"sı" bölməsində ikinci halda "Qeyd" hissəsinin ikinci cümləsində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 4 dekabr tarixli 255 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarəti obyektlərinin baytarlıq (baytarlıq-sanitariya) ekspertizasının aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bəndin üçüncü abzasında "ərzaq və xammalda" sözləri "qida məhsullarında" sözləri ilə əvəz edilsin;

2.2. 2-ci hissənin altıncı abzasında "yem (heyvanların yemləndirilməsi üçün nəzərdə tutulan taxıl məhsulları, pambıq çiyidi və qabığı, qarışıq yem, qaba yemlər, cecə və s., sümük unu, ət unu, balıq unu və başqa yem əlavələri)" sözləri "yem məhsulları (heyvanların qidalanmasında istifadə olunan emal olunmamış, yarımemal olunmuş və tam emal olunmuş məhsullar, maddələr və yem əlavələri)" sözləri ilə əvəz edilsin;

2.3. 4.4-cü bəndin birinci cümləsində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 85-ci maddəsinin beşinci abzasının birinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2.3-cü və 1.2.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2.3. yem məhsulları - heyvanların qidalanmasında istifadə olunan emal olunmamış, yarımemal olunmuş və tam emal olunmuş məhsullar, maddələr və yem əlavələri;

1.2.4. yem əlavələri - yem məhsuluna və suya məqsədli şəkildə əlavə olunan, heyvanların rasionunda çatışmayan maddələrin, mineralların və vitaminlərin mənbəyi kimi istifadə olunan üzvi, mineral və (və ya) sintetik mənşəli maddələr;";

4.2. 3.6-cı bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İdxalçı ölkələr tələb etdiyi hallarda ixrac olunan məhsullara Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən verilən sağlamlıq sertifikatı qida məhsulunun qida təhlükəsizliyi göstəriciləri ilə yanaşı, heyvan mənşəli məhsullar üçün heyvan sağlamlığı göstəricilərinə uyğunluğunu da təsdiq edə bilərlər.".

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 13.3-cü, 17.7-ci bəndlərə və 17.8.23-cü yarımbəndin ikinci cümləsinə "texniki" sözündən əvvəl "qida təhlükəsizliyi sahəsində" sözləri əlavə edilsin;

5.2. 16.16-cı bəndin ikinci abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

5.3. 17.7-ci bəndin ikinci cümləsində "sanitariya-gigiyena tələblərinə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.4. 17.8-ci bənddə "sanitariya-gigiyena normalarına" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.5. 17.10-cu bənddə "sertifikat, şəhadətnamə" sözləri "Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktı" sözləri ilə əvəz edilsin;

5.6. 17.21-ci bənddə "ərzaqlar" sözü "qidalar" sözü ilə əvəz edilsin;

5.7. 17.25-ci bəndin ikinci və üçüncü abzaslarında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

5.8. 19.3-cü və 20.5-ci bəndlərə "sanitariya-gigiyena tələblərinə" sözlərindən sonra ", qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri əlavə edilsin;

5.9. 20.4-cü bənddə "ərzaqlarla" sözü "qidalarla" sözü ilə əvəz edilsin;

5.10. 42.1.12-ci yarımbəndə "baytarlıq sənədlərini" sözlərindən sonra ", Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktını" sözləri əlavə edilsin.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 noyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Təhsil müəssisələrində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.2-ci bəndin birinci cümləsinə və 2.5-ci bəndə "qaydalarına" sözündən sonra ", qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri əlavə edilsin;

6.2. 2.3-cü bəndin ikinci abzasında və 2.6-cı bənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

6.3. 2.6-cı bəndin birinci abzasına "keçməlidirlər" sözü "keçirilməli, habelə gigiyenik təlimlərə cəlb olunmalıdırlar" sözləri əlavə edilsin;

6.4. 2.6-cı bəndin birinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İlkin və dövri tibbi müayinələrdən keçməmiş, habelə müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların qida blokuna buraxılması qadağandır.".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 9 mart tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları"nın 4.4.3-cü yarımbəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 16** **Bakı şəhəri, 12 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"ndə, 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə, 2015-ci il 16 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin Nizamnaməsi"ndə, 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri"ndə, 2018-ci il 29 dekabr tarixli 573 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən Qeyri-Hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları"nda və 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Təhsil müəssisələ-rinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "I. Təhsil müəssisələrinin tikintisinə dair vahid normalar" üzrə:

1.1.1. 1.3.16-cı yarımbənddə "ərzağın" sözü "qidanın" sözü ilə əvəz edilsin;

1.1.2. 1.3.33-cü yarımbəndin birinci və üçüncü cümlələrində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.1.3. 1.3.34-cü yarımbənddə "Ərzaq" sözü "Qida" sözü ilə, "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.1.4. 1.3.36-cı yarımbəndin birinci cümləsində, 1.3.37-ci yarımbəndin ikinci cümləsində, 4.3.17-ci, 4.3.18-ci, 5.3.17-ci və 5.3.18-ci yarımbəndlərdə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2. "III. Təhsil müəssisələrində ümumi sanitariya-gigiyena tələbləri" üzrə:

1.2.1. 1.4.1-ci yarımbənddən "və ərzaq xammalının" sözləri çıxarılsın və həmin yarımbəndə "normalarına" sözündən sonra ", qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri əlavə edilsin;

1.2.2. 1.4.24-cü yarımbənddə "bioloji fəallığa malik qida əlavələrindən" sözləri "bioloji aktiv qida məhsullarından" sözləri ilə əvəz edilsin;

1.2.3. 1.4.30.2-ci yarımbənddən "ərzaq və" sözləri çıxarılsın;

1.2.4. 1.4.30.3-cü yarımbəndin birinci cümləsində, 1.4.32-ci, 1.4.36.1-ci yarımbəndlərdə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2.5. 1.4.31-ci yarımbəndin ikinci cümləsində "qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair reyestrdən çıxarışın surəti, qida təhlükəsizliyi sertifikatı" sözləri "qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışa, idxal olunmuş məhsullara verilən idxal sağlamlıq aktı" sözləri ilə, "saxlanma" sözü "yararlılıq" sözü ilə əvəz edilsin;

1.2.6. 2.3.4-cü yarımbənddə "ərzaqların" sözü "qidaların" sözü ilə əvəz edilsin;

1.2.7. 2.4.4-cü yarımbənddə (hər iki halda) "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "müddətinə" sözündən əvvəl "yararlılıq" sözü əlavə edilsin;

1.2.8. 2.5.1-ci yarımbənddə "gigiyenik cəhətdən hazırlıqlı olan" sözləri "gigiyenik təlimlərdən keçmiş" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.18-ci bənddə "ərzaqların" sözü "qidaların" sözü ilə, "istifadə müddətinə" sözləri "yararlılıq müddətinə" sözləri ilə əvəz edilsin və həmin bəndə "nəzarət" sözündən sonra "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa və" sözləri əlavə edilsin;

2.2. 5.3.5-ci yarımbənddə "müəyyən olunmuş normativlərə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 16 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respub-likası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin Nizamnaməsi"nin 1.7-ci və 11.4-cü bəndlərində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.7-ci yarımbəndin altıncı abzasında "Qeyri-ərzaq" sözü "Qeyri-qida" sözü ilə əvəz edilsin;

4.2. 2.1.8-ci yarımbəndin birinci və altıncı abzaslarında "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.3. 2.1.8-ci yarımbəndin ikinci abzasında, beşinci abzasında (hər dörd halda) və altıncı abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 29 dekabr tarixli 573 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən Qeyri-Hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları"nın 20.6-cı bəndinin ikinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1.7-ci yarımbəndin altıncı abzasında "Qeyri-ərzaq" sözü "Qeyri-qida" sözü ilə əvəz edilsin;

6.2. 2.1.8-ci yarımbəndin birinci və altıncı abzaslarında "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

6.3. 2.1.8-ci yarımbəndin ikinci abzasında, beşinci abzasında (hər dörd halda) və altıncı abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 15** **Bakı şəhəri, 12 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 22 yanvar tarixli 10 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 23 yanvar tarixli 11 nömrəli, "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın, "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 14 iyun tarixli 95 nömrəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" 2013-cü il 8 yanvar tarixli 2 nömrəli, "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin və "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2015-ci il 4 avqust tarixli 274 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Yeyinti məhsullarına verilən uyğunluq sertifkatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifkatının və baytarlıq şəhadətnaməsinin verilməsi qaydalarının təsdiq edilməsi haqqında" 2007-ci il 25 sentyabr tarixli 142 nömrəli Qərarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Baytarlıq normalarına cavab verən məhsulların sahibinə həmin məhsulların satışına icazə verən ekspertiza aktının təqdim edilməsi və ya məhsulun (ətin, heyvan və quş cəmdəklərinin, digər məhsulların) üzərində nişan qoyulması Qaydaları" üzrə:

1.1.1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. Ətin nişanlanmasında qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən boyalardan istifadə olunur.";

1.1.2. 2.2-ci bəndin ikinci abzasının ikinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Heyvan xəstəliklərinin qarşısının alınması və dövlət baytarlıq nəzarətinə cəlb edilən yüklərin təhlükəsizliyinin təmin edilməsi Qaydaları" üzrə:

1.2.1. 3-cü hissənin üçüncü abzasında "baytarlıq-sanitariya cəhətdən keyfiyyəti müəyyənləşməmiş yem" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğun olmayan yem məhsulları" sözləri ilə əvəz edilsin;

1.2.2. 5.1-ci bənddə "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

1.2.3. 5.2-ci bənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

1.2.4. 5.4-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İdxal edilən heyvan mənşəli məhsullar və xammal, yem məhsulları və yem əlavələri qida təhlükəsizliyi sahəsində tələblərə cavab verdikdə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən idxal sağlamlıq aktı təqdim edilir.".

**2** "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 22 yanvar tarixli 10 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Yüksək toksiki-ekoloji təhlükəli preparatların siyahısı və tətbiqi Qaydaları"nın 3.9-cu bəndinin ikinci cümləsinə "yem" sözündən sonra "məhsulları" sözü əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması Qaydaları"nın 5-ci hissəsində "ərzaq" sözü "qida" sözü ilə, 14-cü hissəsində "ərzaq mallarının, yemin" sözləri "qida və yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**3** "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 11 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Heyvanların planlı profilaktik və ya məcburi peyvənd edilməsi, heyvan xəstəliklərinin baş verməsinin və yayılmasının qarşısının alınması, xəstəlikləri ləğv etmək üçün epizootiya mənbələrində və qeyri-sağlam məntəqələrdə, heyvandarlıq binalarında, onların ərazilərində, nəqliyyatda və digər yerlərdə dezinfeksiya, dezinseksiya və deratizasiya işlərinin aparılması Qaydası"nın 3.4-cü bəndində "yem" sözü "yem məhsulları" sözləri ilə, 4.5-ci bəndində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanılması Qaydası və müddəti"nin 2.2-ci bəndinin ikinci cümləsində "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş "Baytarlıq tədbirlərinin təşkili və həyata keçirilməsi Qaydaları"nın 2.1-ci bəndinin dördüncü və beşinci abzaslarında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə, 4.8-ci bəndində "yem" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsinin "060625 Texnoloji maşın və avadanlıqlar mühəndisliyi" ixtisasının "- Yeyinti sənayesi iaşə və ticarətinin texnoloji maşın və avadanlıqları" sətrində "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.2. "060644 İstehlak mallarının ekspertizası və marketinqi" ixtisası üzrə:

4.2.1. "- Ərzaq məhsullarının ekspertizası və marketinqi" sətrində "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.2.2. "- Qeyri-ərzaq məhsullarının ekspertizası və marketinqi" sətrində "Qeyri-ərzaq" sözü "Qeyri-qida" sözü ilə əvəz edilsin.

**5** "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. mətn üzrə "Ərzaq məhsullarının" sözləri "Qida məhsullarının" sözləri ilə, "ərzaq norması" sözləri "qida norması" sözləri ilə əvəz edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin siravi və rəis heyətinin müalicə ərzaq payı Normaları"nın "Qeydlər"inin 5.1-ci bəndinin ikinci cümləsində "ərzaq məhsullarından" sözləri "qida məhsullarından" sözləri ilə, 6-cı hissəsində "ərzaq məhsullarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

**6** "Yeyinti məhsullarına verilən uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin verilməsi qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 19** **Bakı şəhəri, 13 yanvar 2024-cü il**

***Abşeron və Xızı rayonlarının inzibati ərazilərində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında***

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələ-rindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Qoyuluş gücü 240 MVt olan "Xızı-Abşeron" külək elektrik stansiyasının tikintisi məqsədilə Abşeron rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 8,0052 hektar, Abşeron rayonu Pirəkəşkül-Qobustan Bələdiyyəsinin mülkiyyətində 6,1763 hektar, Xızı rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 3,7665 hektar və Xızı rayonu Sitalçay Bələdiyyəsinin mülkiyyətində 18,8293 hektar olmaqla, ümumilikdə 36,7773 hektar torpaq sahəsi bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

**2** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

**3** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 36,7773 hektar torpaq sahəsində külək elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Baş prokuror Beyləqan rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Yanvarın 16-da Baş prokuror Kamran Əliyev Beyləqan rayon prokurorluğunun inzibati binasında Beyləqan, Ağcabədi, Füzuli, İmişli, Laçın, Xocavənd rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Qəbulda iştirak edən 71 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib. Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

***XQ***

Yaddaşlarda yaşayanlar

# Bir Hüseyn Əfəndimiz var idi

**Son günlər Abşerona yağan qar uşaqlara sevinc, cavanlara oyun bəxş etsə də, yaşlı nəsilə çoxsaylı xatirələri bir daha yaşamaq imkanı verdi.**

... Xırdalan şəhər poliklinikasına gedəndə əllərimi cibimdən çıxarmırdım. Ona görə də üzümə dəyən qar dənələri elə oradaca əriyir, axır, külək isə kürəyimi döyəcləyirdi. Saç-saqqalımızı ağardan qocalığın üzü ağ olsun ki, yaddaşımızı da korşaldıb. Yol boyu ha fikirləşirdim ki, bu lövhəni hansı şairimizin şeirində oxumuşam. Çətin axtarış idi. İnsan beyni də "Google" deyil ki, istədiyin faktı axtarış verib, dərhal tapasan... Amma, deyəsən, yaddaşımızda hələ nə isə qalıb.

... Mən daha çox musiqiçiləri, rəssamları, aktyorları tanıyırdım, iş yoldaşımız İlham Abbasov isə şairləri, ədəbiyyatçıları.



Musa Yaqub, Məmməd İlqar, Qoca Xalid, Əjdər Ol, Sabir Sarvan, Mətləb Nağı, Givi və digər şairlərimizin şeirlərinə lap çoxdan bələd olsam da, şəxsi tanışlığımız məhz İlhamın vasitəçiliyi ilə olmuşdu. İlhamın keçmiş dostu Hüseyn Əfəndi ilə isə bir kollektivdə də işləməli olduq.

İş elə gətirdi ki, rəhmətlik Mahal İsmayıloğlunun təşkil etdiyi əsgərlərlə görüş tədbirlərinin bir neçəsinə Hüseynlə birgə getmişdik. 1997-ci ilin iyun ayında Ağdam səfərimiz zamanı orada gecələməli olduq. Rayon rəhbərliyi fotomüxbirimiz Cahangir İbadov, Hüseyn Əfəndi və mənim Xındırıstanda qalmağımızı məsləhət bilmişdi. Gedib orada qaldıq və səhər tezdən bizi Qarabağın ağ tutuna qonaq etdilər. Mənim yaxşı şeir eşitməyə böyük həvəsim olduğuna görə Quzanlıdakı axşam yeməyindən sonra elə Xındırıstanda da Hüseyn mənə xeyli şeir oxumuşdu. Onun misralarına heyranlıqla qulaq asdığımı müsbət qarşılamış, sonralar Bakıda da məni xeyli şeirə qonaq eləmişdi.

Qeyri-adi dərəcədə həssas ürəyi var idi. Məhz elə həmin ürək onu yarı yolda qoydu.

Qayıdaq, Xırdalanda yağan qara. Həmin gün mənim üz-gözümü qırmanclayan qar haqqındakı şeiri məhz on illər əvvəl Hüseyn Əfəndidən eşitmişdim:

**Üzümə yağan qar əriyər sakit,**
**Külək kürəyimə dəyib qayıdar.**
**Mənimlə yanaşı yeriyər səki,**
**Hərdən döngələri əyib qayıdar.**

Bu məqamda "Allah rəhmət eləsin!"– deməkdən başqa çarə qalmır.

Dövlət Teleradio Verilişləri Komitəsinin (bu qurumun adı sonralar bir neçə dəfə dəyişdirilib) 3 sədri haqqında ( Elşad Quliyev, Məmməd İsmayıl və Babək Hüseynoğlu) olduqca zəngin xatirələrim var. Bu barədə mətbuatda dəfələrlə söz açmışam. Elə Hüseyn Əfəndi haqqındakı sətirlərimi də həmin 3 şəxsdən birinin – Məmməd İsmayılın internetdən götürdüyüm xatirələri ilə tamamlayıram:

"Hüseyn hələ gənclik çağlarından ... yetkinləşmiş bir adam idi. Dədə-babaları Sibirə sürgün edilmiş bir ailənin övladı olub. Unutmuşam, bəlkə də, Hüseyn özü də Sibirdə doğulmuşdu. Ağır həyat şərtləri onu vaxtından qabaq uşaqlıqdan gəncliyə, gənclikdən də ahıllığa keçirmişdi. Saçları vaxtından qabaq bəmbəyaz olmuşdu və bu bəyazlıq da onun sifətinə nur gətirmişdi. Nə olur-olsun yalan danışmazdı. Sonralar "Gənclik"də mənə ən yaxın adam olmasına baxmayaraq, əsla, işçilərin heç birinin arxasınca danışmazdı. İçindən keçənləri yeri gələndə üzə vurmağı da vardı. Mən teleşirkət sədrliyindən istefa verdikdən sonra telefonlarımın susduğu, bilərəkdən boşluğa salındığım o zor dönəmlərdə mənə sona qədər sadiq qalan iki-üç kişidən biri və bəlkə də, birincisi Hüseyn Əfəndi oldu".

Məmməd müəllimə uzun ömür arzulayaraq əlavə edim ki, Hüseyn Sibirdə yox, Qazaxıstanda – Vətənindən sürgün edilmiş ailədə doğulmuşdu.

Bərəkətin var olsun, Abşeron qarı, bu xatirəni yada saldın.

***İttifaq MİRZƏBƏYLİ***

# Yeni yol Gədəbəydə 19 kəndi yüksəlişə qoşur

*(əvvəli 1-ci səhifədə)*

Məlumat üçün bildirək ki, sərəncama əsasən, on yeddi min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən bu yolun əsaslı təmiri məqsədilə ilkin olaraq 2 milyon manat ayrılıb. Artıq bir neçə gündür ki, sərəncamın icrasına başlanılıb. Yolun bir hissəsi də rayonun Düz Rəsullu bələdiyyəsinə daxil olan Göyəmli–Şınıx–Göyəlli kəndlərini əhatə edir. Ucqar dağ kəndlərini birləşdirən bu yolun 2024-cü ildə asfaltlaşdırılması nəzərdə tutulub. Adamlar çox sevinirlər, deyirlər ki, dövlətin diqqəti sayəsində Gədəbəyin sərhəd bölgəsi daha rahat və asfalt yollarla təmin olunacaq.

**Gədəbəy sakini Sənan Quliyev bu ucqar dağ rayonunun yollarının tamamilə yenidən qurulması üçün misilsiz iş görüldüyünü dedi və dövlət başçısının imzaladığı sərəncamın yaratdığı ruh yüksəkliyindən danışdı:**

– Qonşu kənddən o birisinə getmək olmurdu. Nə yol var idi, nə körpü salınmışdı. Magistral yollar bərbad vəziyyətdə idi. Sərhəd kəndlərinə gedib çıxmaq mümkün deyildi. İndi Gədəbəyin yollarına baxanda adamın ürəyi dağa dönür. Cənab Prezidentin Gədəbəylə bağlı bu yaxınlarda imzaladığı sərəncam da rayonda böyük ruh yüksəkliyi ilə qarşılanıb. Hamı sevinir. Artıq işlərə başlanıb. Baxıram ki, bu kəndlərin sakinləri iş görənlərin yanından getmir, maraqlanırlar...

Düz Rəsullu kənd icra nümayəndəsi Xalid Zeynalov da sakinlərin həddindən artıq sevindiklərini dilə gətirdi, "Elə bil ki, Şınıxa ikinci həyat gəlir",– dedi.

**Kənd bələdiyyəsinin sədri Ələddin Qurbanov hər gün ən azı iki saat yol salanların yanında olduğunu bildirdi:**

– Kənddə hamı onlara xüsusi hörmət və qayğı ilə yanaşır. Gecələmək üçün yer ayırmışıq. Tez-tez ehtiyacları ilə maraqlanırıq. Yeri gələndə əyləşib bir stəkan çay da içirik. Zarafat deyil, bizə yol çəkirlər, özü də necə yol! Asfalt yolumuz olacaq, gedib Şınıxın dairəvi yoluna birləşəcək. Adama yuxu kimi gəlir...

Rayon icra hakimiyyətindən isə bildirdilər ki, son illər Gədəbəyin həm avtomobil, həm də kəndarası yolları öz görkəmini xeyli dəyişib. Rayonda məqsəd əhalinin sosial problemlərini həll etməklə yanaşı, turizmin inkişafına da təkan vermək, qonaqların bölgəyə gəlişini ilin bütün fəsillərində təmin etməkdən ibarətdir. Bu baxımdan Gədəbəyin yollarının əsaslı bərpa olunmasına xüsusi diqqət yetirilməsi təbiidir və buna görə sakinlər sevinc, fərəh hissi keçirirlər.



***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Sosial sfera yenilikləri



## Qarabağ xilaskarlarına Türkiyədə ehtiram

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin təşkilatçılığı ilə bir qrup Vətən müharibəsi iştirakçısı qardaş Türkiyədə səfərdə olub. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai şuranın üzvü Emil Həsənli məlumat verib. İctimai birliyin sədri XQ-yə bildirib:

– Türkiyə Müharibə Qaziləri Dərnəyinin dəvəti ilə təşkil edilən səfər zamanı Türkiyə Respublikasının vitse-prezidenti Cevdət Yılmaz, milli müdafiə naziri Yaşar Gülər, ailə və sosial xidmətlər nazirinin müavini Sevim Sayım Madak, Türkiyənin Baş Qərargah rəisi, ordu generalı Mətin Gürak və digər rəsmilərlə görüşlər keçirilib. Aparılan söhbətlərdə iki ölkə arasında münasibətlərin dövlət başçılarının birgə səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb. Qardaş ölkənin rəsmiləri Azərbaycanın Vətən müharibəsi iştirakçılarını Türkiyədə görməkdən məmnunluqlarını bildirib, ölkəmizin tarixi Zəfərinin onlarda sonsuz qürur hissi doğurduğunu vurğulayıblar.

Müharibə iştirakçıları Mərsin və Adananın işğaldan azad olunmasının 102-ci ildönümü ilə bağlı tədbirlərdə də iştirak ediblər. Onlar Türkiyə Böyük Millət Məclisində, Təqaüdçü Astsubaylar dərnəyində, Mərsin və Adana valiliklərində, Böyükşəhər Bələdiyyəsində, Ömər Halisdəmir adına Mədəniyyət Mərkəzində və digər qurumlarda görüşlər keçiriblər.

E.Həsənli Azərbaycan və Türkiyənin hərbiyönümlü təşkilatları arasında əməkdaşlıq çərçivəsində ildə bir neçə dəfə qarşılıqlı səfərlər təşkil edildiyini də bildirib. O, iki ölkənin hərbiyönümlü QHT-ləri arasında əməkdaşlığın genişləndirilməsini, təcrübə mübadilələri aparılmasını bu səfərlərin əsas məqsədi olduğunu qeyd edib.

## Ötən il pensiya ödənişləri 5,7 milyard manat artıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, 2023-cü ildə pensiya ödənişlərinə əvvəlki ilə nisbətən 16 faiz və ya 781 milyon manat çox olmaqla 5 milyard 726 milyon manat yönəldilib.

Növbəti pensiya artımları olaraq ötən il minimum pensiya 280 manata çatdırılıb. 2022-ci ildə pensiyaçılara ödənilən maddi yardımların onların pensiyaları tərkibinə daxil edilərək, bundan sonra yaranan pensiya məbləğlərinin 14,7 faiz indeksləşdirilərək artırılması təmin olunub. Həmin dövrdə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 436 manata, yaşa görə pensiyaların orta aylıq məbləği də 17 faiz artaraq 467 manata çatdırılıb.

Son bir ildə 31 min 800, elektron təyinat mexanizminin tətbiqinə başlandığı 2019-cu ilin əvvəlindən isə 102 min vətəndaşa proaktiv qaydada pensiya təyin olunub.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Azərbaycanı xaricdə tanıdanlar

# NASA-da, "Mercedes-Benz"də çalışmış soydaşımız




**Dünyaca tanınmış İstanbul Texniki Universitetin ilk və yeganə ən yüksək ballı məzunu azərbaycanlı Teymur Sadıqov olub. 1773-cü ildə qurulan bu məşhur universitetin 240 ildən çox tarixi ərzində də ondan başqa heç bir məzun ən yüksək qiymət göstəriciləri ilə universitet tarixinə düşməyib.**

Teymur Sadıqov 1987-ci ildə Bakıda anadan olub. Əslən Qazax rayonunun İkinci Şıxlı kəndindəndir. 2003-cü ildə paytaxtın 211 saylı orta məktəbini bitirib. Sinif yoldaşları toplama və çıxmanı öyrəndikləri zaman o, mürəkkəb riyazi hesablamalar üzərində çalışıb, 2-ci sinifdən birbaşa 4-cü sinfə keçib, orta məktəbi 9 ilə başa vurub.

Həmin il də İstanbul Texniki Universitetinin təyyarə və kosmik elmlər fakültəsinə daxil olub. Bakalavr səviyyəsində dövlət xətti ilə təhsil alan Teymur burada "Təyyarə mühəndisliyi" ixtisasına yiyələnib. Təhsil aldığı illərdə Azərbaycan və Türkiyə dövlət təqaüdçüsü olan Teymurun elmi nailiyyətlərinə Azərbaycan dövləti dəstək olub, tədqiqatlarına əlavə mükafatlar ayırıb. Həmyerlimiz BP, İTU Fondu və Nippon Fondu daxil olmaqla bir neçə beynəlxalq statuslu təşkilatın təqaüdlərinə layiq görülüb.

Dünyanın ən yüksək reytinqli 10 mühəndislik və texnologiya ali məktəblərinin hamısı onu bakalavr sonrası təqaüdlü təhsilə qəbul edib. Amma o, San-Dieqo Kaliforniya Universitetini seçib və 2008-ci ilin sentyabrında Kaliforniya Universitetinin Mexanika və Aerokosmik Mühəndislik fakültəsində prestijli Powell Fondu təqaüdçüsü olaraq təhsilə başlayan Teymur 2010-cu ilin iyun ayında əla qiymətlərlə mühəndislik elmləri və mexanika mühəndisliyi ixtisasından magistr dərəcəsi ilə məzun olub. Daha sonra məşhur alim, professor Vassim M.Haddadın dəvətilə ABŞ-ın ən böyük və yüksək reytinqli Corciya Texnologiya İnstitutunun aerokosmik mühəndisliyi fakültəsində təhsilini dövlət proqramı ilə davam etdirib. Corciya Texnologiya İnstitutunda doktorantura təhsilindən sonra 28 yaşında doktorluq dərəcəsi alıb. Tələbəlik illərində dünyanın ən məşhur elmi jurnallarında 10-dan çox məqaləsi dərc edilib və beynəlxalq konfranslarda məruzəçi olub. Bu, universitet tələbələri arasında ən yüksək reytinq göstəricisi idi.

Azərbaycanlı alim sonra NASA-da çalışmaq dəvətini qəbul edib. Kaliforniyanın Pasadena şəhərindəki NASA-nın Jet Propulsion elmi tədqiqatlar laboratoriyasında robotik sistemlərin qiymətləndirilməsi, qərar və nəzarət qrupunda elmi tədqiqatlara qoşulub. Mars planetinə göndərilmiş peykin avtonom idarə olunması, eləcə də yüksək mobilli çoxməqsədli təkərli nəqliyyat vasitəsinin insansız idarə edilməsi layihələrinin iştirakçısı olur. Bu layihə həm də Amerika Donanması ilə birgə olan layihədir.

İki il sonra NASA-dan ayrılıb. 2015-ci ildə "Mercedes-Benz" alman korporasiyasının elmi tədqiqat mərkəzinin nümayəndələri ona pilotsuz avtomobil hazırlanmasında baş mühəndislik işini təklif ediblər. Beləliklə, Silikon vadisinə köçən həmyerlimiz "Mercedes Benz"in əməkdaşı olub. Avtomobillərin "intellekti" üzərində işləmək 2 il çəkib, bundan sonra oradan da getməyə qərar verib…

Müasir dünyada ən qabaqcıl texnologiyaların cəmləşdiyi aerokosmik sahədə tanınmış alimlərlə çiyin-çiyinə çalışan və layihələri yoxlama mərhələlərindən uğurla keçən Teymur Sadıqovun ən böyük arzusu bu sahədə öz sözünü deməkdir. Hazırda mühəndislik robotik və süni intellekt üzrə investisiya və konsaltinq şirkətlərinin rəhbəridir. Hər il müxtəlif sahələrdə, xüsusilə də yollarda təhlükəsizliyi artıran və qəzaların ölüm sayını azaldan pilotsuz nəqliyyat vasitələrinin avtomatlaşdırılmasına nail olmaq onu düşündürən problemlərdəndir.

Həmyerlimiz mühəndislik sənətini insanlıq üçün ən vacib sahələrdən biri hesab edir. Onun dediyinə görə, insanlar çox səhvlərə yol verir və verməkdədirlər. Bəzən diqqətsiz, yorğun olur və ya avtomobili alkoqolun təsiri altında idarə edir, nəticədə tək özlərinə yox, başqalarına da ziyan vururlar. Bunun qarşısını almaq üçünsə mükəmməl robot texnologiyalarına nail olmalıyıq, özü-özünə idarə olunan avtomobillər hazırlamaq lazımdır. Mən inanıram ki, biz texnologiyanı daha da təkmilləşdirə bilərik, nəinki insanları...

Teymur Sadıqov doğulub boya-başa çatdığı Azərbaycanla əlaqələrini kəsməyib. Vətənə dönmək fikri olmasa da, Azərbaycanda innovativ elmi mərkəz açmaq niyyətindədir. Müdafiə Sənayesi Nazirliyinin dəvəti ilə Bakıda olub, dəniz, hava və quru qoşunları üçün nəzərdə tutulmuş avadanlıqların, eləcə də təhlükəsizlik vasitələrinin təqdim edilməsi üçün ideal platforma olan Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində (ADEX) iştirak edib, ADA Universitetində, Bakı Ali Neft Məktəbində, Xəzər Universitetində seminarlar aparıb. "Nargis" nəşrinə müsahibəsində bildirib ki, dəvət olunduğu bütün universitetlərdə və digər təşkilatlarda robot texnikasına, süni intellektə diqqət çəkmək üçün Bakıda keçirilən seminarlarda çıxış etməyə çalışacaq. Onun ilk seminarı yoxsul ailələrdən olan gənclərə ünvanlanmışdı. Bu uşaqları motivasiya etməyi, öz güclərinə inandırmağı vacib sayır. Axı o, özü imkansız ailədə böyüb və təhsilinə bir qəpik belə xərcləməyib...

***Namiq QƏDİMOĞLU***
***XQ***

17 yanvar 2024-cü il, çərşənbə Xalq qəzeti

# Milli şərqşünaslığımız elmi nəşrlərdə

**AMEA-nın Şərqşünaslıq İnstitutunun elmi-kütləvi nəşri olan "Azərbaycan şərqşünaslığı" jurnalının növbəti nömrəsi işıq üzü görüb.**




Jurnalın bu sayı görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunub. "Zərifə Əliyeva – 100" bölməsində AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyevanın "Görkəmli alim-oftalmoloq akademik Zərifə xanım Əliyevanın 100 illiyinə ithafən" adlı məqaləsi, eləcə də Şərqşünaslıq İnstitutunda akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş beynəlxalq elmi konfrans, "Zərifliyə ithafən" adlı sərgi, eləcə də konfransın tezislər kitabı barədə məlumat təqdim edilib.

"Türkiyə Cümhuriyyəti-100" bölməsində "Əbədi sarsılmaz dostluq və qardaşlıq", "Türkiyə Ədalət və İnkişaf Partiyasının hakimiyyəti dövründə", "Cümhuriyyətin 100-cü ilində Milli qurtuluş savaşına baxış", "Atatürk, Cümhuriyyət, elm və texnologiya", "Cümhuriyyətin ilk illərində Türk-Azərbaycan ədəbi və elmi əlaqələri", "AMEA-nın Şərqşünaslıq İnstitutunda Türkiyənin Cümhuriyyət dövrü ilə bağlı aparılan tədqiqatlara dair" kimi məqalələr, eləcə də Türkiyə Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar institutda keçirilən beynəlxalq konfrans, tədbir və görüşlər barədə xəbərlər yer alıb.

Jurnalda "Türkiyə cəmiyyətinin modernləşməsi və avropalaşması prosesinə tarixi baxış", "Həsən Məcidzadə Savalanın "Apardı sellər Saranı" poeması ilə Xəlil Rza Ulutürkün eyni adlı poeması arasındakı eyniliklər və fərqliliklər", "Türk və qaqauz dillərində "vətən" konsepti", "Azərbaycan şərqşünaslığında gender probleminə dair araşdırmalar" kimi məqalələr oxucuların diqqətinə çatdırılır. Türkiyədə elmi ezamiyyətdə olmuş institutun Din və ictimai fikir şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayevin "İstanbul xatirələrim" yazısı, institutda çap olunmuş kitablar, keçirilən konfrans, tədbir və görüşlər barədə xəbərlərlə tanış olmaq olar.

*

**Türkiyədə nəşr olunan "Orta Doğu ve Orta Asya-Kafkaslar Araştırma ve Uygulama Merkezi Dergisi"ndə isə şərqşünas alim Təranə Həşimovanın "Azərbaycan və özbək türklərinə aid dastanlarda qadın obrazlarının özəllikləri" adlı məqaləsi dərc olunub.**




İnstitutun Mərkəzi Asiya ölkələri şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru olan müəllif söz açdığı dastanlarda türk xalqlarının əxlaqını, psixologiyasını, adət-ənənələrini, milli-mədəni xüsusiyyətlərini, mübarizə tarixini, düşüncə tərzini geniş araşdırıb. Dastanlarda təsvir olunan obrazlar qadının cəmiyyətdəki yerinin və dəyərinin timsalıdır. Məqalədə Azərbaycan və özbək qadın obrazlarının oxşar xüsusiyyətlərindən də bəhs edilir.

*XQ*

# "Arşın mal alan" operettası Ankarada

**Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası Ankara Dövlət Opera və Balet Teatrında yeni quruluşda səhnəyə qoyulub. Əsəri tamaşaya Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev hazırlayıb.**



Hafiz Quliyev indiyədək milli operamızın səhnəsində Üzeyir bəyin "Arşın mal alan" operettası ilə bərabər, "Leyli və Məcnun", "O olmasın, bu olsun", "Koroğlu", "Əsli və Kərəm", Zülfüqar Hacıbəyovun "Aşıq Qərib", Fikrət Əmirovun "Sevil", Cahangir Cahangirovun "Xanəndənin taleyi", Süleyman Ələsgərovun "Solğun çiçəklər", Şəfiqə Axundovanın "Gəlin qayası", Ramiz Mustafayevin "Vaqif", Firəngiz Əlizadənin "İntizar", Nazim Əliverdibəyovun "Cırtdan", Murad Kajlayevin "Valida" və digər əsərlərə səhnə həyatı verib. Beynəlxalq festivalların iştirakçısıdır. Mədəniyyət və İncəsənət Universitetində rejissor və aktyor sənətindən, Milli Konservatoriyada opera sənətindən dərs deyir, dosentdir.

Qeyd edək ki, "Arşın mal alan" dünyanın 90 ölkəsində səhnələşdirilib. 111 ildir ki, bu əsər səhnələrdən düşmür. Təkcə Hafiz Quliyev dahi bəstəkarın əsərlərini Çin, Belarus, Bolqarıstan və digər ölkələrin teatrlarında da səhnələşdirib. Müxtəlif dilə, adət-ənənəyə, düşüncəyə, psixologiyaya malik millətlərə Üzeyir bəyin əsərlərini sevdirə bilib. "Arşın mal alan"a gəlincə isə, bu operetta Ankara səhnəsində ilk dəfə 1985-ci ildə nümayiş etdirilib. Bunun ardından 2003-cü ildə teatr rəhbərinin müavini Bülənt Ateşoğlunun layihəsi əsasında Hafiz Quliyevin quruluşunda əsər yenidən səhnəyə qoyulub. 2013-cü ildə onun rejissorluğu ilə həmin teatr bir daha məşhur operettaya müraciət edib. Ümumiyyətlə isə həmyerlimiz "Arşın mal alan" operettasını qardaş Türkiyənin müxtəlif şəhərlərində 6 dəfə səhnələşdirib. Hər dəfə olduğu kimi, builki premyera da uğurlu olub.

– Ötən ilin dekabr ayında yenidən məşqlərimizə başladıq və hazırlıqlarımız normal keçdi, – deyə Hafiz Quliyev bildirib. – Bu dəfə tamaşanın orkestr rəhbəri Rüstəm Rahmedov idi. Tamaşa bu ay daha bir neçə dəfə oynanılacaq və artıq bütün biletləri satılıb. Bu da bir




əsr keçməsinə baxmayaraq insanların dahi Üzeyir Hacıbəyli və dünyaca məşhur "Arşın mal alan" əsərinə olan marağının ən böyük göstəricisidir. Məsələ burasındadır ki, Üzeyir bəy Azərbaycanın işıqlı ruhunu bu əsərinə köçürə bilib. Onun əsərləri çox parlaq musiqisi və maraqlı librettosu ilə hər zaman diqqət çəkib.

Tanınmış rejissor daha sonra dedi ki, türk və Azərbaycan dillərinin çox yaxın olmasına baxmayaraq, Türkiyə türklərinin əsəri tam başa düşmələri üçün yeni mətnin yazılmasına qərar verilib və mətn hər iki dildə istifadə edilən sözlərin əsasında hazırlanıb. Beləliklə, təxminən 70 faizi Azərbaycan dilindən ibarət bir libretto ilə yenidən Türkiyə tamaşaçısına təqdim olunub.

Səhnə əsərində Əsgər obrazını Ankara Dövlət Opera və Balet Teatrının solisti və Türkiyənin Hacettepe Universiteti Dövlət Konservatoriyasının müəllimi, əsərin mətn üzrə redaktoru Şenol Talınlı ifa edib. Aktyor bildirib ki, 2003-cü ildən etibarən 3 il səhnəyə qoyulan və xalqın çox böyük marağına səbəb olan bu əsərə bilet tapmaq mümkün deyildi. Sevinirik ki, indi də eyni vəziyyət yarandı.

*Ə.DOSTƏLİ*
*XQ*

Bu gün deməsək...

**Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Şəhər və qəsəbələrin, digər yaşayış yerlərinin təmizliyi də bu sıraya aid edilə bilər.**

# Şəhərin "sellofan kəpənəklər"i



Həyatda bütün əməllər bumeranq təsiri bağışlayır. Havanın, suyun, torpağın çirkləndirilməsi təbiətə ziyan vurur və insanların özlərinin əleyhinə çevrilir. Hələ qədimdən ətraf mühiti korlamaq günah sayılıb. "Adam su içdiyi quyuya tüpürməz" məsəli də o vaxtlardan qalıb.

Bəs, bu gün həmin həyati tələblərə nə dərəcədə əməl edirik? Təəssüf ki, istifadədən sonra hara gəldi, atılan plastik və polietilen tullantıları, sellofan torbaları və cığara bükümlərini görəndə sanki özümüzün özümüzə qənim kəsildiyimiz qənaətinə gəlməli oluruq.

Məsələ burasındadır ki, ötən əsrin 60-cı illərində kimyəvi materiallardan hazırlanmış bu cür tullantıların həcmi heç 1 faizə də çatmırdı, indi isə bu rəqəm dünyada 12 faizi keçib. Texnologiyaların inkişaf etdiyi, onsuz da atmosferin daha çox çirkləndirildiyi hazırkı dövrdə təmizliyə və sanitariya qaydalarına riayət etmək xüsusilə vacibdir. Atılmış sellofanların flora və faunaya birbaşa mənfi təsir etməsi danılmaz faktdır. Qlobal iqlim dəyişiklikləri fonunda təbiətə buraxılan istənilən zərərli maddə sağlamlığa böyük ziyan vurur.

Hər bir şəhərin infrastruktur təməlində təmizlik dayanır. Təəssüf ki, paytaxtımızda son dərəcə zəruri olan bu tələbin pozulduğuna, məişət tullantıları ilə davranmaq mədəniyyətinə məhəl qoyulmadığına tez-tez rast gəlirik. Məsuliyyət həm də fərdi xarakterlidir. İstənilən insanın gəzinti zamanı ayaqüstü qida maddələrindən istifadə etdikdən sonra cığaranı, büküm kağızını, siqaret kötüyünü, tum paketini, plastik su və şirə qablarını zibil qutusuna deyil, ayaq altına atması özü də bir mədəniyyətsizlik faktıdır. Təəssüf ki, çoxları buna önəm vermir, bilərəkdən və ya bilməyərəkdən səkilərin, küçələrin, park və xiyabanların eybəcər hala düşməsinə səbəb olurlar. Bu zaman ictimai qınağın, maarifləndirmə tədbirlərinin də elə bir təsiri olmur. Hətta inzibatı cəzalar, cərimələr belə lazımi effekt vermir. Görəsən, bizdə bu laqeydlik, biganəlik haradandır?

Nəzərə almalıyıq ki, küçə və səkilərin çirkləndirilməsi təmizlik yaradan kommunal xidmət işçilərinin, xadimələrin ikiqat əziyyət çəkməsi ilə nəticələnir. Küləkli havalarda hara gəldi atılan tullantılar toza, torpağa qarışaraq meydanlarda, tinlərdə, dalanlarda elə dövrə vurub "rəqs" edir, sellofan torbalar havada elə uçuşur ki, gəl, görəsən. Torbalar bəzən insanın üst-başına yapışır, ağacların üstündə "yolka bəzəyi"nə dönür. Bəzi hallarda sellofan tullantılar ağacların yuxarı başına ilişib qalır ki, onları oradan götürmək çətin olur. Belə mənzərələrlə həm şəhərin mərkəzində, həm də kənar ərazilərdə qarşılaşırıq. Məsələn, Mehdiabad istiqamətindən Balaxanıya doğru gedən yolda "sellofan qoşunu" məftilli hasarları elə bürüyüb ki, küləkli havalarda eybəcər şəkildə yellənməsi ilə hansısa bir dəhşət filminin kadrlarını xatırladır. Mərkəzdən bir qədər aralı olan əksər yolların, hasar və çəpərlərin qıraqları atılmış müxtəlif əşyaların, sellofanların "zibil sərgisi"nə dönüb.

Bir müddət öncə marketlərdə sellofan torbalara görə əlavə ödəniş edilməsinə qərar verilib. Belə ki, ölçüsü 15-50 mikron olan polietilen torbalar, ayrıca məhsul növü kimi pulla satılır. Lakin, görünür, bu addımın da elə bir faydası olmayıb. Əvvəla, həmin torbaların qiyməti çox ucuzdur, yəni yenə də gen-bol alınır, ikincisi də ki, apteklərdə, kafe və restoranlarda, sənaye malları mağazalarında, onsuz da həmin torbalardan havayı olaraq istifadə edilir. Evlərdə qalaq-qalaq yığılan torbalar da sonda tullantı olaraq, zibilxanalara daşınır və ən yaxşı halda, orada yanaraq məhv edilir. Bu isə atmosferin olduqca zərərli maddələrlə çirkləndirilməsi deməkdir və insan sağlamlığı üçün əlavə risklər yaradır.



Onu da xatırladaq ki, bəzi ölkələrdə sellofanlardan ifrat istifadəyə görə yüksək cərimələr müəyyən edilib. Bizdə də bu, tətbiq olunsa, eko-torbalardan, tor çantalardan istifadə daha çox stimullaşdırılar. Ümumiyyətlə, hər cür polietilen qablaşdırmadan imtina edilər.

Fikrimizcə, bir çıxış yolu da alış-verişdə tekstildən tikilmiş və daha uzunmüddətli istifadəyə yararlı olan, eləcə də həsirdən, kağızdan hazırlanmış torbalara, zənbillərə üstünlük verməkdir. Amma bu gün parça torbaların qiyməti bahadır. Bu torbaları alıcılara daha münasib qiymətə təklif etmək məqsədəuyğun olar.

Müvafiq orqanlara gəlincə isə, onlar da şəhərin təmizliyinə daha həssas münasibət bəsləməlidirlər. Tez-tez hökumətin ekoloji siyasətinə dəstək kampaniyaları, iməciliklər keçirmək, maarifləndirici və cəza xarakterli tədbirlərin təsir gücünü artırmaq da lazımdır ki, ictimaiyyət öz gündəlik həyatına bir qədər tənqidi nəzər yetirsin. Belədə şəhər daha təmiz görünər, eyni zamanda, "Yaşıl dünya naminə həmrəylik ili"ndən başlayaraq, küçə və meydanların gərəksiz tullantılardan xilasına nail olarıq.

*Ceyhun MİRZƏLİ,*
*Əli NƏCƏFXANLI*
*XQ*

# "Özbək Vikipediyası"nda Zəngəzur bölməsi

**Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə "Vikipediya" Beynəlxalq Elektron Ensiklopediyasında XX əsrin əvvəllərindən xarici havadarların hərbi-siyasi dəstəyi ilə Ermənistana birləşdirilən qədim Azərbaycan ərazisi Zəngəzur mahalı haqqında özbək dilində bölmə istifadəyə verilib.**

Məqalədə qeyd olunur ki, Zəngəzur toponimi "Zəngi" – qədim türk tayfasının adıdır və bu gün də ərazidəki coğrafi toponimlər türk mənşəlidir. Arxiv sənədləri və tarixi faktlar əsasında məlumat verilir ki, 1905–1907-ci, eləcə də 1918–1920-ci illərdə ermənilərin Zəngəzurun azərbaycanlılar yaşayan kəndlərinə hücumları nəticəsində 100-dən çox kənd talan olunub, yandırılaraq yer üzündən silinib. 1920-ci il avqustun 10-da Rusiyanın Qafqaz Bürosunun özbaşına şəkildə Naxçıvanın Şərur-Dərələyəz bölgəsini də Ermənistana vermək barədə qərar qəbul etdiyi vurğulanır. 1988-ci ildə Qərbi Azərbaycandan bütün soydaşlarımızın qovulduğu və terrora məruz qaldığı, habelə tarixi abidələrin dağıdıldığı qeyd olunur.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır" sitatı da yer alıb.

"Zəngəzur dəhlizi" adlı bölmədə isə həmin ərazi haqqında məlumatlar öz əksini tapıb. Qeyd olunur ki, 2020-ci il sentyabrın 27-də başlamış II Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi tarixi qələbənin önəmli nəticələrindən biri də Naxçıvandan Azərbaycanın əsas



hissəsinə birbaşa uzanan həmin dəhlizin açılması məsələsidir. Burada məlum üçtərəfli Bəyanatın Ermənistanın 30 illik işğalçılıq siyasəti nəticəsində məhdudlaşan iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və bu istiqamətdə qlobal layihələrin həyata keçirilməsinə hüquqi zəmin yaratdığı da əks olunub.

Bölmədə 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngəzur dəhlizi ilə bağlı quruculuq işlərinin təməlqoyma mərasimində iştirakı, erməni işğalçılarından azad edilmiş bölgədə Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun açılması barədə məlumatlar və fotoşəkillər də öz əksini tapıb.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*

**Daşkənd**

Beynəlxalq həyat

# HƏMAS – İsrail müharibəsinin sonu görünmür

*(əvvəli 1-ci səhifədə)*

HƏMAS–İsrail müharibəsinin yaranma səbəbləri, "böyük güclər"in bu regiondakı maraqları, münaqişə alovunun qonşu ölkələri bürüməsi ehtimalı və s. məsələlərlə bağlı ADA Universitetinin professoru, siyasi şərhçi Kamran Behbudovla müsahib olduq.



**– Kamran müəllim, sizcə, HƏMAS ilə İsrail arasında silahlı qarşıdurmanın bu qədər kəskin xarakter almasının səbəbi nədir?**

– Bildiyiniz kimi, Fələstinin HƏMAS silahlı qruplaşmasının oktyabrın 7-də İsrailə qarşı başladığı hücum miqyası və zorakılığı baxımından görünməmiş bir hadisə idi. Xəbərdarlıq edilmədən həyata keçirilən bu hücum israillilərlə fələstinlilər arasında onilliklər boyunca davam edən gərginliyin nəticəsi idi. Deyərdim ki, bu, HƏMAS-ın Qəzzada indiyə qədər başlatdığı ən iddialı hərbi əməliyyatdır və İsrailin uzun illər ərzində üzləşdiyi ən ciddi transsərhəd hücumudur.

HƏMAS hücumlarının arxasında bir sıra səbəblər dayandığını deyir. İsraillə HƏMAS arasında zorakılığın eskalasiyası Qəzzada mühasirə altında qalan milyonlarla fələstinlinin həyatı və rifahını riskə atdığı bir vaxtda sülh çağırışları da artır.

Dini və ideoloji təmayüllü terror təşkilatı olaraq HƏMAS-ın mübarizəsini bir sıra dini motivlər üzərində qurması (Ərəb–İsrail müharibələri və buna bənzər münaqişələr) "həmrəylik" adı altında baş verə biləcək hərəkətlərə yol açır.

**– Sizcə, Yaxın Şərqdə terrorun və terrorçuların bu qədər geniş "əl-qol açması" nə ilə bağlıdır?**

– Terrorun vətəni və milliyyəti yoxdur. O, bütün bəşəriyyət üçün təhdiddir. Terror qrupları ən ağır zorakılıqlara belə əl atmağa meyilli olurlar. Bir çox hallarda daha çox səs-küy yaradan bombardmanlar kütləni səfərbər etmək və sosial dəstək qazanmaq üçün çox təsirli bir üsul kimi önə çıxır.

Üstəlik, amansız və qəddar hərəkətlərin artmasının qruplara daha çox populyarlıq qazandırması arqumenti zorakılıq kriteriyasını bu qruplararası rəqabətdə bir nömrəli göstəriciyə çevirir.

Çünki zorakılığın səviyyəsinin artması müvafiq terror təşkilatının qətiyyətini və effektivliyini yerli əhaliyə nümayiş etdirmək, kütlələri müdafiə olunan "səbəb" və ya ideologiya kontekstində səfərbər etmək baxımından kritik əhəmiyyət kəsb edir.



Regiondakı bir çox ölkələr uzun illər İsrail–Fələstin münaqişəsindən Yaxın Şərqdə sabitliyi pozmaq üçün istifadə ediblər. Hazırda HƏMAS-ın İsrailə hücumu əvvəlki hücumların analoji davamıdır.

**– Dünya birliyi bu ağır müharibənin qarşısını almaq üçün niyə təsirli tədbirlər görmür?**

– Yaxın Şərqdə də yeni dünya nizamının bünövrəsi qurulur və HƏMAS-ın varlığı yeni nizamı təhdid edir. İranın Yaxın Şərqdə fəaliyyəti də yeni siyasi nizamda nəzərdə tutulmur. Baş verən HƏMAS–İsrail münaqişəsi, dolayısı ilə İrana qarşı müharibədir. HƏMAS-ın ləğvi İrana qarşı hərbi əməliyyatlarla müşayiət oluna bilər. İlk növbədə, İranın dəstək verdiyi regionda onun proksi qüvvələrinə qarşı əməliyyatlar genişlənəcək.

Hazırda baş verən HƏMAS-İsrail müharibəsi gözlənilən idi və "İbrahim" sazişinə uyğun olaraq həyata keçirilir. İran İsrailin yeni siyasi nizam yaratmaq istiqamətində planına qarşı HƏMAS vasitəsilə Təl-Əvivin planına qarşı çıxdı.

Yaşanan qarşıdurma və insanlıq dramı hər iki tərəfin bir-birlərinə qarşı həyata keçirdiyi sonsuz nifrətin nəticəsidir. Hər iki toplum bu qanlı aksiyada məsuliyyət daşıyır. Buna görə də dünya birliyinin səylərinə baxmayaraq, münaqişəni durdurmaq hələ ki, mümkün olmur.

**– Professor, bu məqamda rəsmi Ankaranın bu məsələnin həlli ilə bağlı mövqeyi də dünyada diqqətlə izlənir.**

– Son vaxtlara qədər siyasi müşahidəçilər Vaşinqtonun İsrailin HƏMAS-la müharibəsinin diplomatik həlli yollarında səylərdə Türkiyəni kənarda qoyduğunu düşünürdü. ABŞ-ın dövlət katibi Entoni Blinkenin son günlərdə Türkiyəyə səfəri bunun dəyişdiyinə işarə edir.

HƏMAS–İsrailin dövlət administrasiya ilə işləmək, terrorla mübarizə, hətta Qəzza üçün bir neçə inzibatı struktur təmin etmək istiqamətində Türkiyə diplomatiyasına və bu ölkənin təsir vasitələrinə, düşünürəm ki, tez bir zamanda ehtiyac ola bilər.

***Söhbəti qələmə aldılar:***
***Kəmalə ABDİNOVA,***
***Məsaim ABDULLAYEV***
***XQ***


# "AZƏRİŞIQ" ASC

**TƏKRAR**

## Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə aid tələblər proqramına əsasən pivot suarma tətbiq edilmiş və ərzaqlıq buğda əkilmiş sahələrin xarici elektrik təchizatının təmin olunması işlərinin satın alınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

LOT-1

Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə aid tələblər proqramına əsasən pivot suarma tətbiq edilmiş və ərzaqlıq buğda əkilmiş sahələrin xarici elektrik təchizatının təmin olunması işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat– "Azərişıq" ASC
H/h: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqələndirici şəxs Namik Heybətovdur.
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan: AZ1009, Bakı şəhəri, M.Əliyev küçəsi 130.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə; (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir.)
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir.)
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir.)
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir).
8. İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması barədə sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki).
10. İddiaçının son 3(üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar və analoji işlərdə təcrübəsi haqqında məlumat.
11. Dövlət sifarişi əsasında baş podratçı qismində iştirak etdiyi ən azı 1 ( beş milyon manatdan az olmamaqla) layihəni uğurla icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir.
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə sənədi.
14. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).

Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 fevral 2024-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 fevral 2024-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olnan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 fevral 2024-cü il saat 15.00-da Bakı, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***"AZƏRİŞIQ"ASC-nin***
***tender komissiyası***


# Alman fermerləri Avropanı ayağa qaldıra bilərlər

**Yanvarın 15-dən başlayaraq fermerlərin etiraz dalğası Almaniyanı yenidən iflic vəziyyətinə salıb. 9 minə yaxın insan, 6 min traktor, yük maşını və başqa kənd təsərrüfatı texnikası Berlinin mərkəzinə toplaşıb. Alman fermerlərinin bu mitinqlərdə əsas məramı Almaniya hökumətini dizel yanacağına verilən subsidiyaların, meşə və kənd təsərrüfatında istifadə edilən nəqliyyat vasitələri üçün vergi güzəştlərinin ləğv edilməsi ilə bağlı planlarından imtina etməyə inandırmaqdır.**

Almaniyanın maliyyə naziri Kristian Lindner nümayişə çıxan fermerlər qarşısında çıxış edərək onları sakitləşdirmək üçün nəsə demək istəsə də, etirazçılar onu fitə basıb sözünü ağzında qoyublar. İnsanlar davamlı olaraq "Çıx get!" deyərək o qədər hayqırıblar ki, alman fermerlərinin həmkarlar ittifaqının lideri Yoaxim Rukvid onlardan nazirə öz fikrini söyləməyə imkan verməyi xahiş edib.

Yalnız bundan sonra nazir Brandenburq qapılarının qarşısına toplaşan minlərlə insana müraciət edərək deyib: "Mən sizə federal büdcədən daha çox dövlət yardımı ayrılacağına söz verə bilmərəm". Bunun əvəzinə, nazir fermerlərə təklif edib ki, "azadlıqdan və öz işinizə hörmətdən həzz alın".

Hökumətin subsidiyaları davam etdirə bilməyəcəyi haqqında qərarı, maliyyə nazirindən əvvəl, AFR-in kansleri Olaf Şolts da açıqlamışdı. O bildirmişdi ki, "əgər biz hamımız 100 faiz öz nöqteyi-nəzərimizin reallaşmasına təkid etsək, heç bir tərəqqiyə nail ola bilmərik". Buna baxmayaraq, alman aqrarçılarının mövqeyi qətidir. Alman fermerlərindən biri Yohannes Marksen xarici media nümayəndələrinin suallarına cavab verərkən deyib: "Nə qədər ki, bizim bütün tələblərimiz yerinə yetirilməyəcək və ya yeni seçkilər keçirilməyəcək, etirazlar o vaxta qədər davam edəcək".



Almaniyada fermerlərin etirazları hələ ötən ilin dekabrından – hökumət yeni "sərt iqtisadiyyat" tədbirlərini elan edəndən başlanıb və bu günə qədər davam edir. Ötən ilin noyabrında ölkənin 2024-cü il büdcəsi qəbul edilərkən 17 milyard avro həcmində defisit yaranıb. Bu isə ölkənin konstitusiya məhkəməsinin ilkin olaraq COVİD-19-un nəticələrinin aradan qaldırılması üçün müəyyən edilmiş 60 milyard avro kredit vəsaitinin qeyri-məqsədlər üçün istifadə olunduğunu elan edəndən sonra baş verib. Hökumət fermerlərə dəstəyi azaltmaqla ildə 480 milyon avroya qənaət edəcəyinə ümid bəsləyirdi. Lakin, görünür, AFR kansleri Olaf Şolts baş qaldıracaq narazılıqların miqyasını qiymətləndirə bilməyib.

Yeddi gün ərzində yüzlərlə traktor və kənd təsərrüfatı texnikası böyük şəhərlərin yollarını bağladı. İflic olmuş yollar, çoxlu sayda kənd təsərrüfatı texnikası, hökumət binalarının qarşısına boşaldılmış mal peyinləri – bütün bunlar bugünkü AFR üçün tipik mənzərəyə çevrilib. Alman politoluqu Aleksandr Rarın fikrinə görə, Almaniyada yaranan bu böhranda əsasən hökumətin tərkibində olan "Yaşıllar" partiyası günahkardır: "Alman fermerləri hökumətə ağlasığmaz məhdudiyyətlər sırıyan "Yaşıllar" partiyasının siyasətinin qurbanıdırlar. İndi onları aqrar sektorda olan dotasiyaların qəfil kəskin azaldılması ciddi narahat edir" – deyə ekspert qeyd edib.

Xatırlayırsınızsa, yanvarın əvvəllərində hökumət qarşıdakı islahatları bir qədər yumşaldacağını bəyan edərkən, AFR-in şimalında 100-ə yaxın fermer ölkənin məzuniyyətdən qayıdan iqtisadiyyat naziri, "Yaşıllar"ın həmsədri Robert Habekin mindiyi bərənin qarşısını kəsmişdilər. Elektron media vasitələri və televiziya kanallarının nümayiş etdirdiyi həmin hadisə zamanı fermerlərdən birinin traktoruna vurulmuş plakatda yazılmışdı: "Qansız insanın rəngi ağarır. Havasız insanın rəngi göyərir. Beyinsiz insanın rəngi yaşıllaşır".

Keçirilən sorğulardan aydın olur ki, almanların əksəriyyəti etiraz nümayişçiləri ilə həmrəydirlər. "Bild" nəşrinin sifarişi ilə İNSA institutunun yanvarın 8-də keçirdiyi sorğunun nəticələrinə görə, AFR əhalisinin 69 faizi həftə boyu davam edən nümayişləri dəstəkləmişdir. Bundan əlavə, seçicilərin 72 faizi Almaniya kansleri Olaf Şoltsun işindən narazıdır. Son tədqiqatlar göstərir ki, seçicilərin yalnız 14 faizi Şoltsun partiyasına – Almaniya Sosial Demokrat Partiyasına səs verməyə hazırdır. "Yaşıllara" və Azad Demokratlar Partiyasına isə daha az – müvafiq olaraq 12 və 4 faiz səs vermək istəyən var. İNSA-nın sorğusuna görə, "Almaniya üçün alternativ"çilərə 18 faizə yaxın, XDS/XSS blokunda birləşənlərə isə 27 faiz seçici səs vermək fikrindədir.

Bundestaqın deputatı Yan Nolte deyir: "Əgər "işıqfor koalisiyası" fermerlərin tələblərini yerinə yetirməzsə, yəqin ki, daha çox təsərrüfat işini dayandıracaq və bağlanacaq. Son 10 ildə orta hesabla ildə 3,5 min müəssisə bağlanıb. Təbii ki, bu, Almaniyanın başqa ölkələrdən ərzaq asılılığını artırır".

Buna baxmayaraq deputat, etirazların hökumətin iflasına səbəb olmayacağına inanır.

– Sorğuların nəticələri o qədər pisdir və "Almaniya üçün alternativ" ("AüA") o qədər güclüdür ki, yeni seçkilər keçirməyə cürət etməyəcəklər. Bunun yerinə nümayişçiləri "sağçı ekstremist" adlandırırlar. KİV-in və xüsusi xidmət orqanlarının köməyi ilə "AüA"-i zəiflətməyə cəhdlər göstərilir, – deyə Yan Nolte bildirib.

Etiraz dalğalarının Avropanın başqa ölkələrinə sıçrayacağı ehtimalı da istisna deyil. Amma, görünən odur ki, müxtəlif dövlətlərin həmkarlar ittifaqlarının həmrəylik əlaqələri elə də güclü deyi. Buna baxmayaraq fermerlərin Almaniyadakı etiraz nümayişlərində Polşa, Çexiya, Avstriya, Fransa, Belçika, Niderlanddan olan kənd təsərrüfatı texnikaları da müşahidə edilmişdir. Ekspertlər həmçinin qeyd edirlər ki, Fransada fermerlərin etiraz nümayişlərinə qalxmaq potensialı daha böyükdür.

Açıqlamalara görə, əgər Fransada da yanacağa subsidiyaları ləğv etsələr və dizel yanacağının qiymətini artırsalar, o zaman Almaniyada baş verənləri Parisin küçələrində də müşahidə edə bilərik. Yeri gəlmişkən, Fransada ildə yüzlərlə fermer özünə qəsd edir. Ölkədə belə faktları çox da geniş açıqlamırlar. Bu da kənd təsərrüfatı məhsulları istehsalçılarının ağır və dözülməz həyatından xəbər verir. Fransa nəhəng kənd təsərrüfatı ölkəsidir, burada baş qaldıracaq fermer etirazları ölkə üçün çox ağır nəticələrə səbəb ola bilər.

Elə Hollandiyada da fermer lobbisi çox güclüdür. Elə ona görə 2023-cü ildə mövcud hakimiyyətin siyasətindən narazılıqların artması üzündən regional seçkilərdə müxalifətyönlü "Mülki Fermer Hərəkatı" qalib gəldi və 12 əyalətin 9-da qanunvericilik məclisində əsas söz sahibi oldu.

–Biz artıq Fransada və Hollandiyada fermerlərin etiraz nümayişlərini və nəticədə hakimiyyətin öz siyasətini dəyişməyə məcbur olduğunu müşahidə etmişik, – deyə Bundestaqın deputatı Ştefan Koyter bildirib.

Bundan əlavə, son vaxtlar Ukrayna ilə həmsərhəd olan ölkələrin aqrar sektorunda insanlarının ciddi narazılıqları müşahidə olunur. Məsələn, Rumıniyada bir neçə gün ardıcıl ümummilli fermer mitinqləri keçirildi. Vətəndaşlar əsasən nəqliyyatın icbari sığortasına, yanacağa aksizlərin və ödənişli yollarda gediş tariflərinin artırılmasına, həmçinin ölkənin sərhədlərində bürokratik yoxlamalara etiraz edirdilər. Xüsusilə məhsulları Ukraynadan daxil olan istehsalçılar tərəfindən ədalətsiz rəqabət şəraitinin yaranması yerli fermerləri narahat edirdi.

Etiraf etmək lazımdır ki, Aİ ölkələrində etiraz dalğasının daha da güclənməsinin əsas səbəbi bu ölkələrdə iqtisadi vəziyyətin gündən-gündə pisləşməsi ilə əlaqədardır. Ən yaxın keçmişdə iqtisadi və sosial həyatı çiçəklənən Avropanın iqtisadiyyatının bu günə düşməsinin əsas səbəbi isə bilavasitə müharibələr və bu ölkələrin dolayısı ilə bu müharibələri maliyyələşdirmələridir. Nə qədər ki, proksi-müharibələr davam edəcək, Avropa çətin əvvəlki rifahını qaytarmağa nail olsun.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 009 (30413) 17 yanvar 2024-cü il, çərşənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Kino

# “Emmi 2024”ün qalibləri



***ABŞ-nin Los-Anceles şəhərində 75-ci Akademiya Mükafatlarının təqdimetmə mərasimində nüfuzlu “Emmi 2024” mükafatının qaliblərinin adları açıqlanıb.***

“Ən yaxşı dram” əsəri nominasiyası üzrə qalib “Varislər” filmi olub. “Ən yaxşı komediya” filmi isə “Ayı” hesab olunub. Mükafatı bu iki layihənin rejissorları – Cessi Armstronq, Kristofer Storer, həmçinin Li Sonq-jin alıblar.

Dram serialında “Ən yaxşı aktyor və aktrisa” nominasiyalarında “Varislər” serialındakı rollarına görə Kiran Kalkin və Sara Snuk seçiliblər. Həmin serialda “Ən yaxşı ikinci plan aktyoru və aktrisası”nın qalibləri Metyu Makfadyen (“Varislər”) və Cennifer Kulic (“Ağ lotus”) hesab olunublar.

Komediya janrı üzrə müvafiq mükafatları Ebon Moss-Bakrak (“Ayı”) və Nisi Neş-Betts (“Bədheybət: Cefri Damerin hekayəsi”) alıblar.

***FİDAN***
***XQ***

# 70 ölkənin gimnastları Bakıda

**Bakıda keçiriləcək idman gimnastikası üzrə Dünya Kubokuna qatılacaq ölkələrin sayı müəyyənləşib.**




“XQ” Azərbaycan Gimnastika Federasiyasının (AGF) mətbuat xidmətinə istinadla xəbər verir ki, martda təşkil olunacaq yarışda Azərbaycan millisi də daxil olmaqla 70 ölkədən gimnastlar qüvvələrini sınayacaqlar. Turnir martın 7-10-da Milli Gimnastika Arenasında təşkil ediləcək.

# Taekvondoçularımız Koreyada

**Kişi və qadın taekvondoçulardan ibarət Azərbaycan milliləri Cənubi Koreyada təlim-məşq toplanışına start veriblər.**



Seuldakı Milli İdman Universitetində təşkil olunan hazırlıqda kişi yığmasının üzvləri Səyyad Dadaşov, Qaşım Maqomedov, Cavab Ağayev, Eltac Qafarov, Hamidreza Badrialiabadi və Milad Beiqi Harçeqani iştirak edirlər.

Qadınlardan isə Zemfira Həsənzadə, Məryəm Məmmədova, Minayə Əkbərova, Səmmərux Osmanova, Səidə Əliyeva və Fatimə Məcidova məşqlərə cəlb olunublar.

Təlim-məşq toplanışı yanvarın 27-dək davam edəcək.

# Lionel Messi – ən yaxşı futbolçu

**FIFA ilin ən yaxşılarına təqdim etdiyi “The Best” mükafatının sahiblərinin adlarını açıqlayıb.**




Ötən ilin ən yaxşı futbolçusu ABŞ-nin “İnter Mayami” komandasının argentinalı ulduzu Lionel Messi seçilib.

2023-cü ildə futbol sahəsində fərqlənənlərin mükafatlandırıldığı mərasim İngiltərənin paytaxtı Londonda keçirilib.

***Leyla SABİRQIZI***
***XQ***

Vətən, sənə can qurban!

# Ayağını Şuşaya verən ata...

**Uşaq ona doğma olan ata ətrini boyunun güclə çatdığı atasının yarımayağından alır!**



Xalq şairi Ramiz Rövşənin “Qapı” poeması var. Ana müharibədə bir cüt ayağını qurban verən oğlunu qarşılamağa çıxır. Baxır ki, oğlunun boyu kiçilib. Elə bilir ki, oturub, onu ayağa qaldırmaq istəyir.

Amma nə oturmaq? Onun oturmağı da bu idi, durmağı da.

***Oğul gəlib dizinəcən,***
***Hanı dizdən aşağısı?!***

Oğlunun boynuna dolanmaq üçün uzanan ana qolları göydə qalır...

Yazıçı İradə Aytelin “Şuşamın ayaqları” adlı gözəl bir hekayəsi var. Uşaq müharibədən yarımcan gələn atasından ayağının niyə olmadığını soruşur.

Ata: – Şuşaya vermişəm, oğlum, – deyir.

– Şuşanın öz ayaqlarına nə olub ki, sənin ayaqlarını alıb?

– Şuşanın ayaqlarını düşmənlərimiz kəsmişdi, yeriyə bilmirdi. Mən də ayaqlarımı ona verdim.

Ata ona izah edir ki, Şahin əmi qollarını, Elmaz əmi gözlərini Şuşaya verib. Ona görə verib ki, Şuşa əlsiz-qolsuz, ayaqsız, gözsüz qalmasın.

Şükür ki, Şuşa indi görür, yeriyir və güclü qolları var.

Oğullar öz canlarından Şuşaya pay veriblər – biri ayağını, biri qolunu, biri gözünü.

Təki Vətən yaşasın...

***Süleyman QARADAĞLI***

Sağlamlıq



# Vitamin A və C – çoxlu canlı qida ye!

***Mütəxəssislər tövsiyə edirlər ki, soyuqdəymə, respirator xəstəliklər və hazırda yayılan qızılca zamanı rasiona A vitamini ilə zəngin qidalar daxil etmək lazımdır.***

Rusiyalı həkim Aleksandr Umnov sağalmaq üçün immuniteti gücləndirən qidalardan söz açıb. Bildirib ki, A və C vitamini ilə zəngin meyvə-tərəvəzləri unutmaq olmaz. Bunlar sitruslar, yaşıl soğan, kök, giləmeyvələrdir. Eləcə də yağsız balıq, yağsız ət, yumurta, bərk pendirlər lazımdır.

A.Umnov A vitamininin bol olduğu qidaları açıqlayıb. Deyib ki, bunlar mal ciyəri, balıq ciyəri, kök, yaşıl göyərti, salat, kərə yağı, zeytundur. C vitamini isə itburnu, bolqar bibəri, kələm, sitrus, almanın tərkibində daha çoxdur.

İmmun sisteminin güclənməsi üçün üzüm və kətan toxumundan hazırlanan sıyıqları da unutmaq olmaz. Bu yeməklərdə sink, dəmir, maqnezium, kalsium və Omeqa 3 turşusu olur.

Həkim deyib ki, bu qidalar beyni aktivləşdirir, bağırsaq florasını gücləndirir, qan dövranını artırır, qanda şəkəri tənzimləyir. Bu aylarda rasiona qara kişmiş əlavə etməyin faydası çoxdur. Çünki həmin çərəz qanda hemoqlobini artırır. Hemoqlobin isə immunitetin yarısıdır.

***Z.HÜSEYNLİ***
***XQ***

✓ *Məmmədov Tural Fariz oğluna məxsus “OPEL ASTRA” markalı 77EF243 dövlət nömrə nişanlı avtomobilin BD385712 nömrəli texniki pasportu itdiyi üçün etibarsız sayılır.*

Hava

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

# Gün yağmursuz və küləkli olacaq



Gün ərazində güclü şimal-qərb küləyi əsəcək, axşam zəifləyəcək. Gecə 0-5°, gündüz 7-10° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 7-12° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Mətanət A” Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Elxan Bəşirov “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvardan Sabir Xəmmədov BDU-nun nəzəri fizika kafedrasının professoru

**AZƏR ƏHMƏDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir, qardaşları Azad və Hikmət Əhmədovlara dərin hüznlə başsağlığı verir.

“Xalq qəzeti”nin kollektivi Əməkdar jurnalistlər Qulu və Zemfira Məhərrəmlilərə əzizləri

**MİRHAŞIM SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Azərmətbuatyayımı” ASC-nin kollektivi “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Xalq qəzeti”nin kollektivi Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədr müavini, Əməkdar jurnalist Əminə Yusifqızıya həyat yoldaşı

**NAZİM ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Ahıl Jurnalistlər Məclisinin sədr müavini, Əməkdar jurnalist Əminə Yusifqızıya həyat yoldaşı

**NAZİM ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı rayonundan Vasif İmanov “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3229
SİFARİŞ 101
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00